**AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİNİN**
**nəzdində BAKI TEXNİKİ KOLLECİ**

**“HUMANİTAR ELMLƏR” fənn birləşməsi**

**Fənn: Ekologiya hüququ**

# MÜHAZİRƏ MƏTNLƏRİ

BAKI-2023

# MÜNDƏRİCAT


MÖVZU 1. Ekologiya hüququnun anlayışı və predmeti.
Ekologiya hüququnun prinsipləri və sistemi ........ 3
MÖVZU 2. Ekologiya hüququnun mənbələrinin anlayışı.
Ekologiya hüququnun mənbələrinin sistemi. ........ 8
MÖVZU 3. Təbiət obyektləri üzərində mülkiyyət hüququnun anlayışı və əlamətləri.
Təbiət obyektləri üzərində mülkiyyət hüququnun obyektləri və subyektləri ........ 12
MÖVZU 4. Ekologiyadan istifadə hüququnun anlayışı, növləri və məzmunu. ........ 15
MÖVZU 5. Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimləməsinin anlayışı və prinsipləri
Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinin formaları, ekoloji funksiyaları və metodları ........ 18
MÖVZU 6. Ekoloji məsuliyyət və ekoloji hüquq pozuntuları.
Ekologiyadan istifadə sahəsində inzibati məsuliyyət ........ 23
MÖVZU 7. Ekologiyadan istifadə sahəsində cinayət məsuliyyəti. ........ 28
MÖVZU 8. Torpaq, torpaqdan istifadənin ekoloji-hüquqi rejiminin obyekti kimi
Torpaqların hüquqi mühafizəsi.
Torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyət. ........ 30
MÖVZU 9. Yerin təkindən istifadə və onun mühafizəsinin ekoloji-hüquqi rejimi.. ........ 34
MÖVZU 10. İşin təhlükəsizliyini təmin edən texniki tədbirlər. Xəbərdarlıq plakatlarının asılması və iş yerlərinin çəpərlənməsi. ........ 38
MÖVZU 11.Meşədən istifadə hüququ və onun növləri.
Meşələrin hüquqi mühafizəsi.
Meşə qanunvericiliyinin pozulmasına görə məsuliyyət.. ........ 39
MÖVZU 12. Heyvanlar aləmindən istifadə hüququ və onun növləri.
Heyvanlar aleminin hüquqi mühafizəsi.
Heyvanlar aləminin istifadəsi və mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət.. ........ 43
MÖVZU 13.Atmosfer havası ekoloji münasibətlərin obyekti kimi.
Atmosfer havasının mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət.. 48
MÖVZU 14. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin anlayışı və ümumi xarakteristikası.
Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin növlərinin hüquqi rejimi… 52
MÖVZU 15. Beynəlxalq ekologiya hüququnun anlayışı və predmeti.
Beynəlxalq ekologiya hüququnun prinsipləri.
Beynəlxalq ekologiya hüququnun mənbələri.
Beynəlxalq ekoloji-hüquqi məsuliyyət… ........ 57

## MÖVZU 1. Ekologiya hüququnun anlayışı və predmeti.

Dövlət və hüququn ekoloji funksiyasının inkişafı hüquq normalarının yeni məcmusunun yaranmasına gətirib çıxarır ki, bu da ekologiya hüququ adlanır.

Ekologiya hüququ Azərbaycan Respublikasının hüquq sisteminə daxil olan müstəqil hüquq sahələrindən biridir. O, indiki və gələcək nəsillərin mənafeyi naminə cəmiyyət və təbiətin qarşılıqlı əlaqəsi sahəsində ictimai (ekoloji) münasibətləri tənzimləyir.

«Ekologiya» termini (yunanca oikos - ev, mənzil, yaşayış yeri və loqos - elm sözlərindən əmələ gəlmişdir) elmi dövriyyəyə alman alimi E.Hekkel tərəfindən 1866-cı ildə daxil edilmişdir, ilk dəfə bu termin biologiya elmi sahəsində işlədilmişdir. Həmin termin XX əsrin ortalarından başlayaraq populyarlıq qazanmışdır. Müasir anlamda o, təbiət böhranlarının meydana çıxması, təbiət obyektlərinin mühafizəsi tələbatının yaranması, insanın ətraf mühitə lazımi münasibətində ifadə olunan və bütövlükdə cəmiyyətin təbiətə münasibətini müəyyən edən təbiətdən səmərəli istifadənin xüsusi tələblərinin işlənib hazırlanması zərurəti ilə əlaqədar istifadə olunmağa başlanmışdır.

Ekologiya canlı orqanizmlərin onları əhatə edən təbii yaşayış mühiti ilə qarşılıqlı təsiri haqqında təlim kimi başa düşülür. Ümumi ekologiyadan onun çox mühüm hissəsi olan sosial ekologiya ayrılmışdır. Sosial ekologiya cəmiyyətin onu əhatə edən təbii yaşayış mühiti ilə qarşılıqlı təsiri haqqında elmdir.

Sosial ekologiyanın mühüm tərkib hissəsindən biri hüquqi ekologiyadır. Hüquqi ekologiya dedikdə, cəmiyyət və təbiətin qarşılıqlı təsiri sahəsində ictimai (ekoloji) münasibətləri tənzim edən normaların məcmusu başa düşülür. Hüquqi ekologiyanın təzahür formalarından biri ekologiya hüququdur.

Ekologiya hüququ ətraf təbii mühitin qorunub saxlanması və səmərəli istifadə edilməsi naminə cəmiyyət və təbiətin qarşılıqlı təsiri sahəsindəki ekologiya-hüquq münasibətlərini tənzim edən hüquq normalarının məcmusudur.

Hüquq ədəbiyyatında «ekologiya hüququ» termininin əvəzinə «ətraf mühit hüququ» termininin işlədilməsi zəruriyyəti barədə fikir mövcuddur. Lakin bu mövqe ilə razılaşmaq çətindir. Fikrimiz- cə, «ətraf mühit hüququ» ekoloji münasibətlərdən başqa, istehsal-təsərrüfat münasibətlərini də ehtiva edir ki, bu da həmin hüququn predmetini, tətbiqi sərhədlərini, habelə onun sistemini dəqiq müəyyən etməyə imkan vermir. Bu isə hüquqtətbiqetmə fəaliyyətində çətinliklərə gətirib çıxara bilər.

«Ekologiya hüququ» anlayışı üç mənada işlədilir: hüquq sahəsi, elm sahəsi və tədris fənni.

Elm sahəsi kimi ekologiya hüququ müstəqil hüquq sahəsi olan ekologiya hüququna dair, habelə tədris fənni kimi ekologiya hüququna dair elmi biliklər sistemindən ibarətdir. Ekologiya hüququ elmi çərçivəsində ətraf mühitin mühafizəsi və ondan səmərəli istifadəyə dair qanunvericiliyin təhlili həyata keçirilir, həmin qanunvericiliyin təkmilləşdirilməsi, habelə yeni münasibətləri tənzimləyəcək normativ aktların qəbul edilməsi üzrə təkliflər irəli sürülür.ekologiya hüququnun predmeti. Hüquqi tənzimləmənin predmetinin düzgün müəyyən edilməsi hüquq normalarının düzgün tətbiqinin məcburi şərtidir. Hüquqi

tənzimləmənin predmeti qismində yalnız müəyyən əlamətlərə malik ictimai münasibətlər çıxış edə bilər. Həmin əlamətlər sırasında aşağıdakıları göstərmək olar:

1. Bu münasibətlər iradəvi xarakterə malikdir, yəni onların yaranması, dəyişməsi

və xitamı xeyli dərəcədə insanların iradəsi ilə müəyyən olunur. İctimai münasibətlərin iradəvi xarakterinin müəyyən edilməsi bu və ya digər ictimai münasibətlərə hüquqi təsir imkanının tətbiq edilməsi deməkdir. Hüquqi tənzimləmənin predmeti qismində hüquqi tənzimləməyə məruz qala bilən və hüquqi «təbiət»ə malik ictimai münasibətlər çıxış edə bilər.

2. Bu münasibətlər müxtəlif ekoloji sistemləri təşkil edən təbiət obyektləri, habelə müxtəlif daxili və xarici iqtisadi əlaqələrlə bağlı təşəkkül tapır. Ekosistemlərin fəaliyyəti ilə bağlı olan münasibətlər ekologiya hüququnun hüquqi tənzimləmə predmetinin əsas hissəsini təşkil edir. Yer kürəsinin biosfer (yunanca «bios» - həyat və

«sfera» - kürə deməkdir) hüdudlarında yerləşən bütün ekosistemlərinin məcmusu öz qanunları ilə inkişaf edən və fəaliyyət göstərən, Günəş şüası, maqnit qasırğası, Yerin maqnit sahəsi və başqa kosmik təzahürlərin təsiri altında olan ən böyük və ən mürəkkəb sistemdir.

3. Bu münasibətlər insanın yaşayış mühitini təşkil edən və onun həyat fəaliyyətinin şəraitini və sağlamlığını təmin edən obyektlər məcmusunun tənzimlənməsinə yönəlir. İctimai münasibətlər təbiət obyektləri sırasına daxil olmayan əmlak xarakterli obyektlərdən istifadə ilə əlaqədar yarandıqda həmin münasibətlər heç də həmişə ekologiya hüququnun predmetini təşkil etmir.

Ekologiya hüququnun predmetini digər sahələrdən fərqləndirən daha bir meyar mövcuddur: bu, ekologiya hüquq normalarının təsir sahəsidir.

Hüquqi tənzimləmə təcrübəsində elə hallara rast gəlinir ki, bir hüquq sahəsinin normaları digər sahələrin normalarının qüvvəsini «idarə edir». Hüquqi tənzimləmənin predmeti dedikdə hüquq normalarının təsirinin yönəldiyi ictimai münasibətlər başa

düşüldüyündən, predmet «rəhbər-norma» üzrə deyil, «icraçı-norma» üzrə müəyyən edilir.

Ekoloji ictimai münasibətlər insanların indiki və gələcək nəsillərinin mənafeləri naminə ətraf mühitin qorunub saxlanmasının maksimum təmin edilməsi məqsədilə təbiət obyektlərinin (ekosistemlərin), habelə həyatın keyfiyyətinə, insanın həyat və fəaliyyətinin şəraitinə və səhhətinə təsir göstərən digər maddi obyektlərin qorunmasına, yaxşılaşdırılmasına, bərpasına və onlardan səmərəli istifadə olunmasına yönəlmiş, tarixən şərtlənən istehsal münasibətləridir.

Ekoloji münasibətlər iki əsas qrupa ayrılır: sahəvi və kompleks münasibətlər. Sahəvi ekoloji münasibətlərə torpaqların, meşələrin, suyun, yerin təkinin,

heyvanlar aləminin və atmosfer havasının mühafizəsi üzrə münasibətlər aiddir.

Kompleks ekoloji münasibətlər təbii qoruq fondunun, təbiət ərazilərinin və komplekslərinin, habelə müalicə-sağlamlıq, sanitari- ya, rekreasiya və digər zonaların mühafizəsi üzrə münasibətlərdir.

Təsiri sahəsində vətəndaşlar və təşkilatlar arasında dövlətin mütləq iştirakı şərtilə, indiki və gələcək nəsillərin mənafeləri naminə, ətraf mühitin qorunub saxlanması məqsədi ilə təbiət obyektlərinin (ekosistemlərin) qorunması, yaxşılaşdırılması, bərpası, onlardan səmərəli istifadə ilə bağlı təşəkkül tapan, tarixən şərtlənən istehsal münasibətləridir.

## Ekologiya hüququnun prinsipləri və sistemi.

«Prinsip» sözü latın sözü olub, iki əsas mənaya malikdir: obyektiv, yəni hər hansı bir nəzəriyyənin, təlimin başlanğıc müddəası və subyektiv, yəni insanın gerçəkliyə münasibətini müəyyən edən daxili inamı.

Hüquq sahəsi kimi ekologiya hüququnun prinsipləri cəmiyyətlə təbiətin optimal qarşılıqlı əlaqəsinin tələblərinə maksimum uyğun gəlməlidir.

Ekologiya hüququnun prinsiplərinə aşağıdakı xüsusiyyətlər xasdır:

1. Obyektiv şərtlilik. Hüquq prinsipi yalnız təbiətə, tarixə və cəmiyyətə uyğun gəldikdə düzgün hesab oluna bilər.

2. Tarixi şərtlilik. Dövlət siyasətinin və dövlət quruluşunun dəyişməsi ilə ilk növbədə, hüquqi tənzimləmənin prinsipləri dəyişir. Başqa sözlə, bu təbii sərvətlər üzərində müstəsna dövlət inhisarçılığı prinsipi dəyişmişdir.

3. Sistemlilik. Ekologiya hüququnun bütün prinsiplərini ümumhüquqi prinsiplərə, Ümumi hissənin prinsiplərinə və Xüsusi hissənin prinsiplərinə ayırmaq olar.

Ekologiya hüququnun ümumhüquqi prinsipləri. Ekologiya hüququnun ümumhüquqi (konstitusion) prinsipləri başlıca olaraq Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş və bu səbəbdən də ən yüksək hüquqi qüvvəyə malikdir. Onların sırasına aşağıdakılar aiddir:

1. Hakimiyyətin xalqa məxsus olması prinsipi

2. Humanizm prinsipi. Bu prinsip öz ifadəsini onda tapır ki, ölkədə və beynəlxalq münasibətlər sahəsində ekologiyadan istifadə münasibətləri, yalnız indiki nəslin deyil, həm də gələcək nəsillərin mənafeləri nəzərə alınmaqla qurulur.

3. Sosial ədalət prinsipi. Bu prinsip hamının məhkəmə və qanun qarşısında bərabərliyindən, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququndan, hər kəsin hüquq və azadlıqlarının məhkəmə təminatından irəli gəlir. Sosial ədalət prinsipi ekologiya hüquq münasibətlərinin hər bir subyektinin təbiətdən istifadə sahəsində bərabər vəziyyət əldə etməsini təmin edir. Bu prinsip ekologiya hüquq münasibətlərinin hər bir subyektinə təbiətdən istifadədə bərabər mövqeyə malik olmaq imkanı verir, habelə onların ekoloji-hüquqi statusunda ayrıseçkiliyin olmamasına şərait yaradır.

4. Qanunçuluq prinsipi ekologiya hüquq münasibətlərinin subyektlərinin bütün normativ tələblərə dəqiq və şərtsiz riayət etməsindən ibarətdir.

5. Beynəlmiləlçilik prinsipi. Ekologiya hüquq münasibətlərində beynəlmiləlçilik prinsipi ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığı nəzərdə tutur. Bu prinsip həmçinin beynəlxalq hüquq normalarının milli hüquq normaları üzərində üstünlüyünü nəzərdə tutur.

6. Təbiət obyektləri üzərində bütün mülkiyyət formalarının və bütün təsərrüfatçılıq formalarının bərabərhüquqlu vəziyyəti prinsipi. Həmin prinsip aşağıdakı normativ müddəalarla təmin olunur:

a) təbiət obyektlərinin təsərrüfat istismarı gedişində yaranan inhisarçılıq meyllərinin qarşısının alınması;

b) təbiət istifadəçisi olan müəssisələrin təsərrüfat fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınması.

7. Ekologiya istifadəçilərinin öz hüquq və vəzifələrini lazımi surətdə icra etməsinin stimullaşdırılması prinsipi.

Belə stimullaşdırma müsbət və mənfi növlərə ayrılır. Müsbət stimullaşdırma ekologiya istifadəçilərinin öz vəzifələrinin lazımi icrasına stimullaşdırılmasından, mənfi stimullaşdırma pozuntulara görə hüquqi və digər məsuliyyətin tətbiqindən ibarətdir.

8. Subyektiv anlaqlılıq prinsipi yalnız təqsirli ekoloji hüquq pozuntusuna görə ekoloji-hüquqi məsuliyyətin tətbiqini nəzərdə tutur.

9. Ekologiya hüquq münasibətlərinin subyektlərinin hüquq və vəzifələrinin vəhdəti prinsipi bunda ifadə olunur ki, hüquq və azadlıqların həyata keçirilməsi vətəndaşların öz vəzifələrini icra etməsindən ayrılmazdır. Bu prinsipə görə, ekologiyadan istifadə sahəsində hər bir hüquqa müəyyən vəzifə uyğun gəlməlidir.

10. İnandırma və məcburetmənin uzlaşdırılması prinsipi. Ekoloji ictimai münasibətlər sahəsində pozuntuya görə məcburetmə yalnız zəruri hallarda tətbiq olunur. Eyni zamanda, ekoloji hüquq pozuntusu törətmiş heç bir təqsirli şəxs məsuliyyətdən yayınmamalıdır.

Bu prinsip ətraf mühitin mühafizəsi sahəsində əvvəlcə inandırma vasitələrinə üstünlük verilməsini, bunun nəticəsi olmadıqda isə məcburetmənin tətbiqini tələb edir.

11. Aşkarlıq prinsipi hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq hüququnu nəzərdə tutur. Nəzərdən keçirilən prinsip həmçinin ekoloji hüquq pozuntularına görə məsuliyyət tətbiq olunduqda aşkarlığı nəzərdə tutur, çünki bu, mühüm tərbiyəvi əhəmiyyətə malikdir.

Ekologiya hüququnun Ümumi hissəsinin prinsipləri. Ekologiya hüququnun Ümumi hissəsinin prinsipləri hüquqla tənzimlənən obyektin - ölkənin təbii obyektlərin məcmusundan ibarət olan ekoloji sisteminin özünəməxsusluğu ilə şərtlənir. Bunun əsasında həmin prinsiplərin aşağıdakı növləri fərqləndirilir:

1. Müvafiq ərazidə yaşayan əhalinin mənafelərinin üstünlüyü və hər bir insanın hüquqlarının müdafiəsi prinsipi.

2. Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin ümum dövlət tənzimlənməsinin üstünlüyü prinsipi.

3. Təbiət obyektlərindən məqsədli istifadə prinsipi

4. Təbiət obyektlərindən rasional və səmərəli istifadə prinsipi

5. Təbiət obyektlərindən istifadə zamanı mühafizə tədbirlərinin üstünlüyü prinsipi

6. Ekologiyadan istifadədə kompleks yanaşma prinsipi

7. Ekologiyadan istifadənin sabitliyi prinsipi
8. Təbii ehtiyatlardan və təbiət obyektlərindən pullu istifadə prinsipi
9. Ekologiyadan istifadənin planlılığı prinsipi.

Ekologiya hüququnun Xüsusi hissəsinin prinsipləri aşağıdakılardan ibarətdir:

1. Kənd təsərrüfatı təyinatlı torpaqların üstünlüyü
2. İçməli və məişət təyinatlı suların üstünlüyü
3. Faydalı qazıntıların işlənilməsi üçün yerin təkindən istifadənin üstünlüyü.
4. Qoruyucu təyinatlı meşələrin üstünlüyü.
5. Heyvanların təbii sərbəstlik şəraitində yaşamasının üstünlüyü.

Ekologiya hüququnun sistemi. «Ekologiya hüququnun sistemi» anlayışı üç mənada işlədilir: hüquq sahəsi, elm və tədris fənni kimi ekologiya hüququnun sistemi.

Hüquq sahəsi kimi ekologiya hüququnun sisteminin təməl daşı şəxslərin müəyyən dairəsi üçün və dəfələrlə istifadə olunmaq üçün nəzərdə tutulmuş ümumi qaydanı təsbit edən ekologiya hüquq normasıdır.

Ekologiya hüquq norması da öz növbəsində elementlərdən ibarət sistemdir. Hüquq sahəsi kimi ekologiya hüququ belə mikro- sistemlərdən təşkil olunmuşdur. Ekologiya hüquq normasının elementləri ənənəvi olaraq hipoteza, dispozisiya və sanksiyadır.

Hipoteza ekologiya hüquq normasında təsbitini tapmış qaydanın tətbiq edilməli olduğu şəraitdir (müvafiq şərtlərin məcmusudur).

Dispozisiya hüquq münasibətləri subyektlərinin normada təsbitini tapmış davranış qaydasıdır.

Ekologiya hüquq normasının sanksiyası normanın yerinə yeti- rilməməsinə, yaxud lazımi qaydada yerinə yetirilməməsinə görə yarana biləcək məsuliyyət tədbirləridir. Qanunvericilikdə ekologiya hüquq pozuntularına görə intizam, inzibati və cinayət məsuliyyəti, zərər yetirildikdə maddi məsuliyyət, habelə müəyyən hallarda xüsusi məsuliyyət (məsələn, istifadəyə verilmiş təbiət obyektinin geri alınması) nəzərdə tutulmuşdur.

Tənzimlənən ictimai münasibətlərin dairəsindən asılı olaraq ekologiya hüquq normaları institutlarda (subinstitutlarda) birləşir, institutlar isə ekologiya hüququ adlı hüquq sahəsində birləşir. Ekologiya hüququ hüquq sahəsi kimi Ümumi, Xüsusi və Əlahiddə hissələrə ayrılır.

Ekologiya hüququnun institutu dedikdə, oxşar ictimai münasibətlərin məhdud dairəsini tənzimləyən hüquq normalarının məcmusu başa düşülür (təbiət obyektləri üzərində dövlət və başqa mülkiyyət formaları institutu, ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət tənzimləməsi institutu, ekologiyadan istifadə hüququ institutu və s.).

Ekologiya hüququ sistemində rolundan və əhəmiyyətindən asılı olaraq institutlar Ümumi və Xüsusi hissədə birləşdirilmişdir. Ümumi hissəyə Xüsusi hissənin bütün, yaxud əksər hissələrinə «xidmət göstərən» müddəaları təsbit edən institutlar daxildir. Məsələn, Ümumi hissənin «Ekologiyadan istifadə və ətraf mühitin mühafizəsinin dövlət

tənzimləməsi» institutunun normaları demək olar ki, Xüsusi hissənin bütün institutlarına şamil olunur (torpaqdan, sudan, yerin təkindən və s. istifadənin ümumi müddəalarını müəyyən edir).

Xüsusi hissəyə tənzimləmə obyektinin (torpaqdan, yerin təkindən, sudan, meşədən və s. istifadənin ekologiya-hüquqi rejimi) özünəməxsusluğuna uyğun məhdud məqsədli təyinata malik institutlar daxildir.

## MÖVZU 2. Ekologiya hüququnun mənbələrinin anlayışı.

Maddi mənada hüququn mənbəyi dedikdə, bu və ya başqa sənəd barəsində xalqın referendum və ya rəy sorğusu yolu ilə ifadə olunmuş iradəsi başa düşülür. Bu mənada hüququn mənbəyinə ən yaxşı misal Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il referendumunda qəbul edilmiş Konstitusiyası ola bilər.

Formal mənada hüququn mənbəyi dedikdə, ümumi davranış qaydalarını - hüquq normalarını özündə əks etdirən hüququn müxtəlif ifadə formaları başa düşülür. Ölkəmizdə belə ifadə forması qismində müxtəlif normativ hüququ aktlardan ibarət olan qanunvericilik çıxış edir. Qanunvericilik hüququn zahiri ifadə formasıdır, çünki hüquq təkcə hüquq normalarından yox, həm də həmin normaların tətbiqi prosesində meydana çıxan hüquq münasibətlərindən ibarətdir. Deyilənlər hüquq mənbəyinə dair ümumi konsepsiya kimi ekologiya hüququna da tamamilə aiddir.

Hüquq normalarının onların təsbit forması olan ekologiya hüququnun mənbələri ilə üst-üstə düşməməsini şərtləndirən əlamətlərin üç əsas qrupunu fərqləndirmək olar:

a) ifadə formasına görə. Hüquq mənbəyi yalnız normativ mətnlə ifadə oluna bilər və yalnız müəyyən normativ hüquqi aktlar (qanunlar, məcəllələr, əsasnamələr, nizamnamələr və s.) şəklində mövcuddur. Hüquq norması isə bu və ya digər normativ hüquqi aktın mövcud olmaması, yaxud «susması» yolu ilə də ifadə oluna bilər.

b) sahələrin strukturuna görə. Ekoloji hüquq normaları hüquq sahəsi kimi ekologiya hüququnu təşkil etdiyi halda, ekologiya münasibətlərini tənzimləyən normativ hüquqi aktlar qanunvericilik sahəsini təşkil edir. Hüquq sahəsi yalnız şaquli struktura malik olduğu halda, qanunvericilik sahəsi həm üfüqi, həm də şaquli struktura malik ola bilər.

c) hüquq normasını və normativ hüquqi aktı təşkil edən ilkin elementlərin strukturuna görə. Hüquq norması daimi struktura (hipoteza, dispozisiya və sanksiya) malik olduğu halda, normativ hüquqi akt çoxlu sayda daxili elementlərə malik ola bilər (maddələr, bəndlər, yarımbəndlər və s.). Ona görə də normativ hüquqi aktın bir bəndində və ya maddəsində bir neçə hüquq norması əks oluna bilər, eyni zamanda bir hüquq norması bir neçə normativ- hüquqi aktda, yaxud bir aktın bir neçə maddəsində təsbit edilə bilər.

Hüquq normalarını təsbit edən normativ hüquqi aktlardan ibarətdir. Onlar aşağıdakı tələblərə cavab verməlidir:

1. Normativ hüquqi akt müvafiq səlahiyyətli orqanın qəbul etdiyi sənəd şəklində

obyektiv ifadə olunmuş formaya malik olmalıdır.

2. Hər hansı sənəd normativ hüquqi akt ola bilməz. Yalnız səlahiyyətli dövlət orqanının və ya müvafiq normativ hüquqi aktların qəbul edilməsi səlahiyyətinin verildiyi başqa qurumun qəbul etdiyi sənəd normativ hüquqi akt qismində tanına bilər.

3. Səlahiyyətli dövlət orqanlarının qəbul etdiyi normativ hüquqi aktlar qanunla müəyyən edilmiş formaya malik olmalıdır.

4. Nəhayət, bu və ya digər normativ hüquqi aktın ekologiya hüququnun mənbəyi qismində çıxış edə bilməsi üçün o, hüquq yaradıcılığı üçün müəyyən edilmiş prosessual qaydalara riayət edilməklə qəbul edilməlidir.

Ekologiya hüququnun mənbəyi dedikdə müvafiq səlahiyyətə malik dövlət orqanının müəyyən olunmuş formaya və qaydaya riayət etməklə qəbul etdiyi və ekologiyadan istifadə sahəsində qanunvericinin dövlət iradəsini təsbit edən normativ hüquqi aktlar başa düşülməlidir.

Ekologiya qanunvericiliyinə aid olan normativ hüquqi aktları müxtəlif əsaslar üzrə təsnifləşdirmək mümkündür.

1. Hüquqi qüvvəsinə görə ekologiya hüququnun mənbələrini qanunlara və qanun qüvvəli aktlara ayırmaq olar.

Ekologiya hüququnun mənbəyi kimi qanunlar Azərbaycan Respublikasının ali qanunvericilik orqanı - Milli Məclis tərəfindən qəbul edilən və Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanaraq dərc edilən normativ hüquqi aktlardır.

2. Tənzimləmə predmetinə görə ekologiya hüququnun mənbələrini ümumi və xüsusi mənbələrə bölmək olar.

Ümumi mənbələr onunla xarakterizə olunur ki, onların tənzimləmə predmeti genişdir və həm ekoloji münasibətləri, həm də ekologiya sahəsinə aid olmayan digər münasibətləri ehtiva edir.

Xüsusi mənbələrin tənzimləmə predmetini yalnız, yaxud başlıca olaraq ekoloji münasibətlər təşkil edir.

3. Hüquqi tənzimləmənin istiqamətinə görə bütün mənbələri maddi və prosessual mənbələrə ayırmaq olar.

Maddi mənbələrin tənzimləmə predmetini bu və ya digər təbiət obyektlərindən istifadə ilə əlaqədar yaranan ekoloji münasibətlər təşkil edir.

Prosessual mənbələr ekologiyadan istifadənin təmin edilməsi qaydasını tənzim etməyə istiqamətlənmişdir və onun təmin edilməsi formasını təşkil edir. Bu növ mənbələrə aid normativ hüquqi aktlar təbiətdən istifadə üzrə konkret fəaliyyətin həyata keçirilmə qaydasını müəyyən edir.

4. Normativ hüquqi aktların xarakterinə görə ekologiya hüququnun mənbələrini məcəlləşdirilmiş aktlara və digər aktlara ayırmaq olar.

Məcəlləşdirilmiş aktlara hüquqyaradıcı fəaliyyətin gedişində normativ materialın tənzimlənən ictimai münasibətlər sisteminə müvafiq surətdə sistemləşdirilərək, vahid sənəd halına gətirildiyi normativ aktlar aid edilə bilər. Belə aktlar qanunvericilik texnologiyası və ictimai münasibətləri tənzimləmə baxımından daha yüksək keyfiyyətə

malikdir və bu və ya digər hüquq sahəsində başlıca yer tutur. Ekologiya hüququ sahəsində Torpaq Məcəlləsi, Su Məcəlləsi, Meşə Məcəlləsi və bəzi başqa qanunvericilik aktları kimi belə mənbələr mövcuddur.

Dərəcəsinə görə ekologiya hüququnun mənbələri əsas və köməkçi normativ hüquqi aktlara ayrılır.

Əsas normativ hüquqi aktlar qüvvədə olan qanunvericiliyin özəyini təşkil edir və şəxslərin qeyri-məhdud dairəsinə şamil olunan ümumi xarakterli qaydaları, ekoloji inzibati xətaların ümumi xarakterini və s. ümumi məsələləri təsbit edir.

Köməkçi normativ hüquqi aktlar, bir qayda olaraq, texniki-hü- quqi xarakter daşıyır və bu və ya digər normativ hüquqi aktın hüquqla tənzimlənən münasibətlərə düzgün tətbiq edilməsinə kömək edir.

## Ekologiya hüququnun mənbələrinin sistemi.

Ekologiya hüququnun mənbəyini təşkil edən normativ aktların iyerarxiyasında birinci səviyyəni beynəlxalq hüquqi aktlar təşkil edir. Beynəlxalq hüququn hamı tərəfindən qəbul olunmuş prinsip və normaları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr milli hüquq sisteminin tərkib hissəsini təşkil edir. Beynəlxalq müqavilə müəyyən olunmuş qaydada bağlandıqda və səlahiyyətli dövlət hakimiyyəti orqanı tərəfindən ratifikasiya, yaxud təsdiq edildikdə Azərbaycan Respublikası hüquq sisteminin elementinə çevrilir. Hüquqi tənzimləmə üçün beynəlxalq müqavilə normalarından istifadə olunması mühüm əhəmiyyətə malikdir.

Beynəlxalq hüquqi aktlar ekologiya sahəsində çox geniş dairədən olan məsələləri tənzimləyir. Xüsusən ətraf mühitin bütövlükdə mühafizəsi və ayrı-ayrı təbiət obyektlərinin qorunması sahəsində dövlətlərin əməkdaşlığı məsələsində beynəlxaiq hüquqi aktların həlledici əhəmiyyəti vardır.

Ekologiya hüququnun mənbələrinin iyerarxiyasında milli qanunvericiliyin əsas özəyini təşkil edən Azərbaycan Respublikasının Konstitusiyası birinci yerdə dayanır. Konstitusiya ölkənin ictimai həyatının ən ümumi məsələlərini, dövlətlə cəmiyyətin, fərdlə dövlətin qarşılıqlı əlaqələrini ümumi şəkildə tənzimləyərək dövlətin siyasi, sosial-iqtisadi və ictimai əsaslarını müəyyən edir.

Azərbaycan Respublikasının qanunları- Ekologiya hüquq münasibətlərinin tənzimlənməsində Azərbaycan Respublikasının qanunları həlledici rol oynayır. Azərbaycan Respublikası qanunları Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul olunur, Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanaraq dərc edilir. Azərbaycan Respublikasında dövlətsuverenliyi bərpa edildikdən sonra ekologiya hüquq münasibətlərinin tənzimlənməsi məqsədilə bir sıra qanunlar qəbul edilmişdir. Belə qanunlar sırasında Azərbaycan Respublikası Meşə Məcəlləsi (30 dekabr 1997-ci il), Azərbaycan Respublikası Su Məcəlləsi (26 dekabr 1997-ci il), Azərbaycan Respublikası Torpaq Məcəlləsi (25 iyun 1999-cu il), Azərbaycan Respublikasının «Ətraf mühitin mühafizəsi haqqında»

(8 iyun 1999-cu il), «Yerin təki haqqında» (13 fevral 1998-ci il), «Atmosfer havasının mühafizəsi haqqında» (27 mart 2001 -ci il), «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» (24 mart 2000-ci il), «Heyvanlar aləmi haqqında» (04 iyun 1999-cu il), «Fitosanitar nəzarəti haqqında» (12 may 2006-cı il), «Ətraf mühitə dair informasiya almaq haqqında» (12 mart 2002-ci il), «Əhalinin sağlamlığının qorunması haqqında» (26 iyun 1997-ci il), «Sanitariya-epidemioloji salamatlıq haqqında» (10 noyabr 1992-ci il), «Əhalinin radiasiya təhlükəsizliyi haqqında» (30 dekabr 1997-ci il), «Balıqçılıq haqqında» (27 mart 1998-ci il) və başqa aktları göstərmək olar.

Təbiətdən istifadənin, ətraf mühitin mühafizəsinin və ekoloji təhlükəsizliyin təmin edilməsinin əsas prinsiplərini və qaydalarını müəyyən edən həmin qanunlar əsasında Azərbaycan Respublikası Prezidentinin xeyli sayda fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və başqa mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları qəbul edilmişdir. Qanunların əsasında qəbul olunmuş həmin aktlar ölkəmizdə ekologiya sahəsində ictimai münasibətlərin lazımi səviyyədə tənzimlənməsini təmin edir.

Azərbaycan Respublikası Prezidentinin fərmanları ekologiya hüququnun mənbələri sırasında xüsusi yer tutur.

Mərkəzi icra hakimiyyəti orqanlarının ekologiya hüququ sahəsində qəbul etdikləri normativ hüquqi aktları üç əsas qrupa ayırmaq olar:

a) Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktları;

b) idarələrarası normativ hüquqi aktlar;

c) nazirlik və idarələrin qəbul etdikləri idarə normativ hüquqi aktları.

Yerli özünüidarəetmə orqanlarının normativ xarakterli aktları. Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsinə görə, Azərbaycan Respublikasında yerli özünüidarəni bələdiyyələr həyata keçirir. Bələdiyyələr öz səlahiyyətləri çərçivəsində müstəqildirlər. Onlar dövlət hakimiyyəti orqanları sisteminə daxil deyildir. Azərbaycan Respublikasında bələdiyyələr şəhərlərdə, rayonlarda, şəhər rayonlarında, qəsəbələrdə və kəndlərdə yaradılaraq fəaliyyət göstərir. Ölkəmizdə yerli özünüidarəni həyata keçirən bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatlarını «Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikasının 2 iyul 1999-cu il tarixli, 698-IQ saylı Qanunu müəyyənləşdirir.

Beləliklə, Azərbaycan Respublikası ekologiya hüququnun mənbələrinin sisteminə aşağıdakıları aid edə bilərik:

1.Beynəlxalq-hüquqi aktlar (o cümlədən beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş prinsip və normaları);

2.Azərbaycan Respublikasının Konstitusiyası;

3.Azərbaycan Respublikasının qanunları;

4.Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları;

5.Azərbaycan Respublikası Nazirlər Kabinetinin və başqa mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları;

6.Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və qanunları, habelə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin normativ qərarları;

7.Yerli özünüidarəetmə orqanlarının normativ xarakterli aktları.

## MÖVZU 3. Təbiət obyektləri üzərində mülkiyyət hüququnun anlayışı və əlamətləri.

Mülkiyyətin başlıca elementini mülkiyyət obyektinin konkret şəxs (şəxslər) tərəfindən mənimsənilməsi təşkil etdiyindən, mülkiyyətin müəyyənedici amili kimi subyekt çıxış edir. Mülkiyyət formaları məhz subyektinə görə fərqləndirilir: dövlət, bələdiyyə və xüsusi mülkiyyət.

Azərbaycan Respublikası Mülki Məcəlləsinə əsasən , torpaq sahələri, yer təki sahələri, aynca su obyektləri, meşələr, çoxillik əkmələr, binalar, qurğular və torpaqla möhkəm bağlı olan digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər daşınmaz əşyalardır.

Təbiət obyektləri üzərində mülkiyyət hüququ özündə iqtisadi və ekoloji əlamətləri birləşdirir. Bu səbəbdən də təbiət obyektləri üzərində mülkiyyət hüququnun aşağıdakı özünəməxsus cəhətlərini qeyd edə bilərik:

1.Təbiət obyektləri üzərində mülkiyyət hüququ əşyalaşmış xarakterə malikdir. Burada əşya dedikdə, ətraf təbii mühitin ayrılmaz hissələri olan təbii sərvətlər başa düşülür. Məhz bu əlamətindən çıxış edərək, qeyd edə bilərik ki, ətraf mühitin insanlara verdiyi bəzi nemətlər üzərində mülkiyyət hüququ həmin nemətlərin obyektiv xüsusiyyətindən irəli gəlməklə qeyri-mümkündür. Belə ki, atmosfer havası, iqlim ehtiyatları, günəş enerjisi və buna bənzər təbiət hadisələri əşyalaşmış xarakterə malik deyildir, ona görə də onlar üzərində mülkiyyət hüququndan danışmaq düzgün olmazdı. Lakin onlardan bəziləri dövlət hakimiyyətinin şamil olunduğu ərazi hüdudlarını, yəni dövlətin hava sərhədlərini müəyyən etmək üçün istifadə olunur. Burada isə söhbət hər hansı bir dövlətin atmosfer havasının müəyyən hissəsinə olan mülkiyyət hüququ kimi iqtisadi kateqoriyadan yox, dövlətin ərazi suverenliyi kimi siyasi kateqoriyadan gedir.

2.Təbiət obyektləri ətraf mühitdən ayrılmazdır və bu əlamət onlar üzərində mülkiyyət hüququnu digər maddi nemətlər üzərində mülkiyyət hüququndan fərqləndirir. Təbiət obyekti mülkiyyət hüququnun obyekti olmaqla eyni zamanda ətraf mühitin ayrılmaz hissəsi kimi təbiət obyekti olaraq da qalır. Hansı mülkiyyət formasından asılı olmayaraq, təbiət obyektinin ətraf mühitlə əlaqəsinin qırılması onun artıq təbiət obyekti

yox, adi əşyalar kimi əmtəə-mal dövriyyəsində mülkiyyət obyekti olmasına səbəb olur (məsələn, ağac meşədə kəsildikdən sonra təbiət obyekti yox, adi əşya olur).

Təbiət obyektlərinin ayrılmazlıq əlaməti bir sıra hallarda həmin təbiət obyekti ilə bağlı olan başqa təbii ehtiyatların da konkret mülkiyyətçiyə məxsusluğunun müəyyən edilməsinin əsası kimi çıxış edir.

Təbiət aləmi üzərində mülkiyyət hüququ onların yaşadığı ərazinin - meşənin, su

hövzəsinin üzərindəki mülkiyyət hüququ ilə müəyyən edilir, çünki konkret meşə sahəsində yaşayan vəhşi heyvanlar həmin meşənin mülkiyyətçisinin mülkiyyətində olacaqdır. Eləcə də torpaq üzərindəki ot örtüyü həmin torpaq sahəsinin mülkiyyətçisinin ayrılmaz mülkiyyətində olacaqdır.

3.Təbiət obyektləri üzərində mülkiyyət hüququ həm də onunla fərqlənir ki, bu obyektlərin dəyəri mövcud deyildir, çünki onlar ictimai faydalı insan əməyi nəticəsində yox, təkamül prosesi nəticəsində meydana gəlmişdir. Lakin təbiət obyektlərinin dəyərinin olmaması torpağın və başqa təbii sərvətlərin pulla ifadə olunan qiymətinin olmaması kimi başa düşülə bilməz. Məlumdur ki, torpaq və əksər təbiət obyektləri müəyyən qiymətə malikdir və mülki dövriyyədə həmin qiymətlərdən istifadə olunur. Eyni zamanda təbiət obyektlərindən istifadə də pulludur. Lakin belə qiymətləndirmə konkret təbiət obyektinin keyfiyyət göstəricilərindən, faydalılıq dərəcəsindən, gəlir gətirə bilmək imkanından asılı olaraq müəyyən edilir.

## Təbiət obyektləri üzərində mülkiyyət hüququnun obyektləri və subyektləri

Təbiət obyektləri üzərində mülkiyyət hüququ üç mənada işlədilir: a) mülkiyyət münasibətlərinin bu növünü tənzimləyən hüquq normalarının məcmusu kimi; b) şəxsin mülkiyyət obyektinə sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermə hüquqlarının məcmusu kimi (subyektiv mənada mülkiyyət hüququ); c) mülkiyyətçi ilə digər şəxslər arasında yaranan hüquq münasibətləri kimi.

Hər hansı hüquq münasibətinin strukturu üç əsas elementdən ibarətdir: hüquq münasibətinin obyekti, hüquq münasibətinin subyektləri və hüquq münasibətinin məzmunu.

İnsanı əhatə edən maddi aləm təbiətin özü və insan tərəfindən yaradılmış təbiət obyektlərindən ibarətdir. Ekoloji münasibətlərin obyektlərinin hüquqi təbiətini onların ekoloji təbiəti, yəni ekoloji münasibətlər sistemi müəyyən edir.

Adətən, hüquq münasibətlərində iki obyekt mövcud olur. Ekoloji hüquq münasibətinə tətbiqən bu, bilavasitə hüquqi tənzimləmə obyektini təşkil edən təbiət obyekti və aşağıdakı iki cəhətə malik olan ikinci obyektdir:

1) təbiət istifadəçisinin öz məqsədlərinə çatmaqda maraqlı olması;

2) təbiət obyektlərinin yaxşılaşdırılmasında və onlara ziyan vurulmasının yolverilməzliyində dövlətin maraqlı olması.

Təbiət obyektinin daxili əlamətini onun üç elementdən ibarət xassələrinin məcmusu təşkil edir:

1) təbiət obyektinin xassələri - bu tip təbiət obyekti üçün tipik və davamlı əlamətlər

2) təbiət obyektlərinin vəziyyəti, yəni təbii proseslərin və təsərrüfat fəaliyyətinin nəticəsində onda baş vermiş dəyişikliklər

3) təbiət obyektində baş verən təbii proseslər

Təbiət obyektləri dedikdə aşağıdakılar başa düşülür:

— təbii ekoloji sistemlər;

— atmosferin ozon qatı; torpaq və yerin təki; səth suları və yeraltı sular; atmosfer havası; meşələr və digər bitkilər; heyvanlar aləmi; mikroorqanizmlər; genetik fond; təbii landşaftlar.

Təbiət obyektlərinin hüquqi statusu üçün onların mənşəyinin xarakteri müəyyən əhəmiyyət kəsb edir. Obyektiv maddiləşmə dərəcəsindən, habelə cəmiyyət üçün əhəmiyyətindən asılı olaraq, təbiət obyektləri dövlət mülkiyyətində olan və dövlət mülkiyyətində olmayan obyektlərə bölünür.

Təbiət obyektləri üzərində mülkiyyət hüququ nə qədər mücər- rədləşdirilsə də, sərhədsiz deyildir. Təbiət obyektləri müəyyən növ mülkiyyətdə olan ekoloji sistemlərin məcmusudur və onun ayrı-ayrı komponentləri bu ekoloji sistemdən çıxdıqda mülkiyyət münasibətləri çərçivəsindən də çıxır, çünki ekoloji əlaqələrini itirərək təbiət obyekti xassəsindən məhrum olur. Məhz bu əlamətindən çıxış edərək təbii ehtiyatların ayrı-ayrı növləri müxtəlif fondlarda birləşdirilmişdir. Belə ki, torpaq fondu həm istehsal vasitəsi kimi, həm də insanın həyat və fəaliyyətinin məkanı kimi istifadə olunur; su fondu insanların və iqtisadiyyatın suya ehtiyacının ödənilməsi üçün istifadə edilir; meşə fondu oduncağın əldə edilməsi, meşə məhsullarının toplanması, ətraf mühitin sağlamlaşdırılması məqsədilə istifadə edilir və s.

Təbiət obyektlərinin ayrı-ayrı növləri fondlarda birləşdirilməklə müəyyən hüquqi status kəsb edir. Hər bir fond çoxməqsədli istifadə xarakterinə malikdir. Buna görə də onlardan istifadə zamanı prioritetlər müəyyən edilir. Belə ki, torpaqdan istifadədə torpaqların kənd təsərrüfatı təyinatına, sudan istifadədə əhali üçün içməli və məişət suyuna üstünlük verilir və s.

Ölkənin ekosistemi mülkiyyət hüquq münasibətləri sahəsində yerləşir və həmin münasibətlərin fəaliyyət mexanizminə, insanların bu mexanizmə cəlb edilməsi üsullarına, mülkiyyətçinin hüquqlarının həyata keçirilməsi yollarına təsir göstərir. Mülkiyyət obyektləri qismində isə torpaq, yerin təki, su, meşələr, heyvanlar aləmi çıxış edə bilər. Həmin obyektlərin barəsində idarəetmə hüququnu müvafiq mülkiyyətçi həyata keçirir.

Mülkiyyət hüququnun subyektləri — dövlət mülkiyyətində olan torpaq sahələri üzərində — Azərbaycan dövləti, bələdiyyə mülkiyyətində olan torpaq sahələri üzərində

— bələdiyyələr, xüsusi mülkiyyətdə olan torpaq sahələri üzərində — Azərbaycan Respublikasının vətəndaşları və hüquqi şəxsləridir.

Dövlət mülkiyyətində olan torpaqlara aşağıdakılar daxildir:

— dövlət hakimiyyət orqanlarının yerləşdiyi torpaqlar;

— dövlətin obyektlərinin — dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat, rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zolaqlarının, mühüm meliorasiya və su təsərrüfatı obyektlərinin yerləşdiyi torpaqlar;

— yay və qış otlaqlarının, mal-qara düşərgələrinin və köç yollarının torpaqları;

— meşə fondu torpaqları (dövlət kənd təsərrüfatı müəssisələrinin meşələri də daxil

olmaqla);

— Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su fondu torpaqları;

— Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 80-130 metrlik zolağının altında olan torpaqlar;

— təbiəti mühafizə, təbii-qoruq, sağlamlaşdırma, istirahət (rekreasiya), tarix-mədəniyyət təyinatlı torpaqlar, habelə üzərində təsərrüfat fəaliyyəti qadağan edilmiş qanunla qorunan digər ərazilərin torpaqları;

— dövlət elmi tədqiqat və tədris müəssisələrinin, onların təcrübə bazalarının, maşın-sınaq stansiyalarının, dövlət sort-sınaq xidmətinin, toxumçuluq və damazlıq təsərrüfatlarının torpaqları;

— dövlət müəssisə, idarə və təşkilatlarının daimi istifadəsində olan və ya dövlət obyektlərinin tikintisi layihələşdirilmiş torpaqlar;

— dövlət ehtiyat fondu torpaqları.

## MÖVZU 4. Ekologiyadan istifadə hüququnun anlayışı, növləri və məzmunu.

«Ekologiyadan istifadə hüququ» termini çoxmənalı olduğundan, obyektiv tədqiqat üçün onun tərkib elementlərini nəzərdən keçirmək zəruridir.

1. Ekologiyadan istifadə hüququ ekologiya hüququnun institutu kimi müxtəlif səviyyəli normativ hüquqi aktlarda təsbitini tapmış normaların məcmusundan ibarətdir. Belə normalar Azərbaycan Respublikasının Konstitusiyasında, müxtəlif təbiət obyektlərinin ekoloji-hüquqi rejimini tənzimləyən məcəllələrində (Torpaq, Meşə və Su) və qanunlarında, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ aktlarında, habelə digər mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarında və bələdiyyələrin normativ aktlarında əksini tapmışdır.

Bu anlayışın başqa adı «obyektiv mənada ekologiyadan istifadə hüququ» kimi ifadə olunur, çünki dövlət hakimiyyətinin iradəsi ilə qəbul edilmiş ekoloji normalar həm dövlətin özü üçün, həm də ekologiyadan istifadə edənlər üçün məcburidir və dəyişdirilənə və ləğv edilənədək öz qüvvəsini saxlayır.

2. Ekologiyadan istifadə hüququ ekologiya istifadəçilərinin hüquq və vəzifələrinin məcmusudur. Lakin həmin hüquq və vəzifələrin həyata keçirilməsi ekologiya istifadəçilərinin özündən asılıdır.

3. Ekologiyadan istifadə hüququ hüquq münasibəti kimi ekologiya istifadəçilərinin obyektiv ekologiyadan istifadə hüququnda təsbitini tapmış subyektiv hüquqlarının həyata keçirilməsi mexanizmindən, onların təcrübədə tətbiqi prosesindən ibarətdir.

Ekologiyadan istifadə hüququnu aşağıdakı meyarlar üzrə təsnifləşdirmək olar.

Ekologiyadan istifadə hüququnun obyektlərindən asılı olaraq ekologiyadan istifadə ümumi və xüsusi ola bilər.

Ekologiyadan ümumi istifadə hər hansı razılıq alınmadan həyata keçirilir. İstifadənin bu növü hər bir vətəndaşın doğulmasının və yaşamasının zəruri şərti kimi ona məxsus olan təbii hüquqlardan irəli gəlir. Ekologiyadan xüsusi istifadə dövlət hakimiyyət orqanlarının müvafiq qərarı əsasında vətəndaşlar və sahibkarlıq subyektləri tərəfindən həyata keçirilir. İstifadənin bu növü məqsədli xarakter daşıyır və istifadə edilən təbiət obyektindən asılı olaraq torpaqdan, yerin təkindən, meşələrdən, sudan, heyvanlar aləmindən, atmosfer havasından istifadəyə bölünür.

Ekologiyadan istifadənin ümumi formasında hüququn subyektləri qismində bütövlükdə cəmiyyət (daha dəqiqi hər bir şəxs), dövlət, yaxud ictimai təşkilatlar çıxış edir. Ekologiyadan istifadənin xüsusi növündə subyekt qismində sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlar, ailə kəndli təsərrüfatları, hüquqi şəxslər və s. çıxış edir.

İstismar olunan təbiət obyektlərinin növündən və onların vəziyyətindən asılı olaraq ekologiyadan istifadə hüququnu aşağıdakı növlərə ayırmaq olar: torpaqdan istifadə, sudan istifadə, yerin təkindən istifadə, meşələrdən istifadə, heyvanlar aləmindən istifadə və s. Bununla bərabər, ekologiyadan istifadə hüququnun məzmununa istifadə olunan obyektin vəziyyəti də təsir göstərir.

İnsanın təbii ehtiyatlardan faktiki istifadəsinin hüquqi tənzimlənmə dərəcəsindən və bu istifadənin tənzimi üsullarından asılı olaraq, ekologiyadan istifadənin aşağıdakı növləri fərqləndirilə bilər:

a) insanın təbii mövcudluq şəraiti;

b) təbii ehtiyatlardan ictimai istifadə hüququ;

c) tənzimlənən ekologiyadan istifadə hüququ.

İnsan özü də ekoloji sistemin ayrılmaz tərkib hissəsidir. O, öz mövcudluğu ilə bu sistemdə müəyyən rol oynayır, eyni zamanda həmin sistemin qanunauyğunluqlarından təbii ehtiyacları üçün istifadə edir. Başqa sözlə, insanın yaşaması özlüyündə ekologiyadan istifadənin bir növüdür.

Təbii ehtiyatlardan ictimai istifadə hüququ təbiət obyektlərinin təhkim olunduğu, yaxud həmin obyektlər barəsində idarəetməni həyata keçirən səlahiyyətli dövlət orqanlarının, bələdiyyə qurumlarının və ya başqa təsisatların icazəsini tələb etmir. Belə istifadə hüququ bilavasitə ekologiyadan istifadəni tənzimləyən qanunlardan, yaxud digər normativ hüquqi aktlardan irəli gəlir. İstifadənin bu növü hər bir şəxs üçün müyəssərdir. Belə istifadə normativ hüquqi aktlarla ən ümumi formada tənzimlənir. Konkret fərdlərin ekologiyadan ictimai istifadə hüququndan yararlanması ayrıca aktın (qərarın, xüsusi icazənin və s.) verilməsini tələb etmir.

Tənzimlənən ekologiyadan istifadənin başlıca xüsusiyyəti ondan ibarətdir ki, ictimai istifadə ilə müqayisədə o, təbii ehtiyatların vəziyyətinə müəyyən təsirlə bağlıdır. Bu zaman konkret istifadəçi (hüquqi və ya fiziki şəxs) təbiət obyektinin faydalı xüsusiyyətlərinin mənimsənilməsini həyata keçirir və bu üsulla ekoloji sistemə təsir göstərir. İctimai mənafelər və ekoloji təhlükəsizliyin təmin edilməsi mənafeləri tələb edir ki, ekologiyadan bu formada istifadə müfəssəl qaydada tənzimlənsin. Ona görə də ekologiyadan istifadənin bu növü müvafiq normativ hüquqi aktlarda müəyyən edilmiş qaydada və şərtlər

çərçivəsində həyata keçirilir. Həmin qayda və şərtlərin pozulması ekologiyadan istifadə hüququnun xitamına səbəb ola bilər.

Ekologiyadan istifadənin növləri sırasında kompleks ekologiyadan istifadə başlıca yer tutur. Bu, ekologiya hüququnun normaları ilə tənzimlənən, ekoloji sistemlərdən və onların əlaqələrindən istifadə ilə bağlı yaranan, digər hüquq sahələrinin normalarının məhdud surətdə şamil olunduğu ictimai münasibətlərdir.

Kompleks ekologiyadan istifadə normativ hüquqi aktlarla daha müfəssəl tənzimlənir. Belə tənzimləmə dərəcəsi vahid iqtisadi fəaliyyətlə bir neçə təbiət obyektindən (torpaqdan, sudan, meşədən və s.) eyni zamanda istifadənin həyata keçirilməsi ilə şərtlənir. Qanunvericilikdə ekologiyadan kompleks istifadə üçün əlavə şərtlər müəyyən edilmişdir. Belə ki, məsələn, təbii ehtiyatlar kompleks istifadə üçün ayrılarkən mütləq müvafiq ekoloji ekspertiza keçirilməli və yalnız müsbət rəy olduqda kompleks istifadəyə icazə venlməlidir.

Ekologiyadan istifadə ödənişli və əvəzsiz ola bilər. Əvəzsiz istifadə zamanı təbiət obyektindən istifadəyə görə heç bir haqq ödənilmir. Vətəndaşların təbii ehtiyatlardan ümumi istifadəsi əvəzsiz istifadədir.

Ekologiyadan istifadə hüququnun əldə edilmə ardıcıllığına görə ilkin və təkrar istifadə hüququ fərqləndirilir. İlkin istifadə hüququ təbii ehtiyatların mülkiyyətçilərindən birbaşa olaraq əldə edilən istifadə hüququdur.

Mülkiyyətçinin deyil, bir ekologiya istifadəçisinin digərinə verdiyi təbiət obyektindən istifadə hüququ törəmə ekologiyadan istifadə hüququ adlanır.

Ekologiyadan istifadə hüququnun məzmunu bir neçə səlahiyyəti ehtiva edir. Bunlara mülkiyyət hüququ, sahiblik hüququ, istifadə hüququ və istifadə üçün ayrılmış təbiət obyektini təsərrüfat daxili idarəetmə hüququ aiddir.

Ekologiyadan istifadə hüququnun tərkib hissəsi kimi təbiət obyektinə sahiblik hüququ iki əsas aspektə malikdir: istifadəyə verilmiş təbiət obyektinin hüdudlarının müəyyən edilməsi və onun ərazisinin təsərrüfatdaxili təşkili (ərazi-təsərrüfat quruluşu). Başqa sözlə, sahiblik iki qrup hüquq münasibətinin mövcudluğunu nəzərdə tutur: ekologiyadan istifadə hüquqlarının müdafiəsinin təmin edilməsi üzrə hüquq münasibətləri: istifadə edilən təbiət obyektinin təşkili üzrə hüquq münasibətləri.

Təbiət obyektindən istifadə hüququ da iki əsas aspektə malikdir: bu obyektdən istifadə hüququnun hədlərinin müəyyənliyi və istifadənin hüquqi proseduruna (təsərrüfat istismarı qaydalarına) riayət olunması.

İstifadənin hədləri qanunvericilikdə təsbitini tapmışdır və hər bir konkret halda təbiət obyektləri istifadəyə verilərkən müəyyən olunur. Belə ki, torpaq sahəsinin istifadəçiləri həmin sahədə olan geniş yayılmış faydalı qazıntılardan müəyyən olunmuş qaydada təsərrüfat məqsədləri üçün istifadə etmək hüququna malikdirlər.

Torpaqdan və digər təbii ehtiyatlardan istifadə hüququnun verildiyi vətəndaşlar üçün təbii ehtiyatlara sahiblik hüququnun və təbiət obyektlərindən istifadə hüququnun proseduru müəyyən dərəcədə sadələşdirilmişdir. Belə ekologiya istifadəçilərinin təsərrüfatdaxili bölmələri olmadığına görə təbiət obyektinin təsərrüfatdaxili quruluşu və onun istismarının təsərrüfatdaxili planlaşdırılması tələb edilmir.

Təbiət obyektlərinin istismarının hədləri və qaydaları həm ekologiya istifadəçisi olan vətəndaşlar üçün, həm də təşkilatlar üçün vahid struktura malikdir.

## MÖVZU 5. Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimləməsinin anlayışı və prinsipləri.

Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi Azərbaycan Respublikasının iqtisadi və ekoloji sistemlərinin idarə edilməsi yolu ilə həyata keçirilir.

Hazırda ölkəmizin yeni Konstitusiyasına və qanunlarına müvafiq olaraq torpaq və digər təbii sərvətlər xüsusi mülkiyyət əsasında vətəndaşlara və müxtəlif hüquqi şəxslərə də məxsus ola bilər. Ona görə də ekologiyadan istifadənin dövlət tənzimlənməsi tamamilə yeni tələblər səviyyəsində təşkil olunmalı və həyata keçirilməlidir. Bu zaman ölkənin ekoloji sisteminin daimi inkişafını təmin etmək üçün nəsillər arasında ədalətli münasibəti qoruyub saxlamaq lazımdır: hazırkı nəslin ətraf mühitin mühafizəsinə və təbii ehtiyatlardan istifadəyə dair qərarları bu qərarların gələcək nəsillərə təsiri nəzərə alınmaqla qəbul edilməlidir.

Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsi institutunun məzmunu aşağıdakı prinsiplərlə xarakterizə olunur:

Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsində qanunçuluq prinsipi. Dövlət və ictimai təşkilatlar, dövlətin vəzifəli şəxsləri və onun orqanları qanunlar əsasında fəaliyyət göstərirlər. Bu tələb bütün vətəndaşlara da aiddir.

Ekologiyadan istifadə edilməsinin tənzimlənməsində qanunçuluq iki əsas cəhətə malikdir:

a) tənzimləmə fəaliyyətində bütün normativ hüquqi aktlara dəqiq və dönmədən riayət olunması. Qanunçuluq prinsipi pozulduqda, yəni müxtəlif hüquqi və ya fiziki şəxslər tərəfindən qanunvericiliyin tələblərinə riayət edilmədikdə, habelə dövlət orqanları tərəfindən qanunvericiliyə zidd qərarlar qəbul olunduqda və hərəkətlər edildikdə səlahiyyətli dövlət orqanları baş vermiş pozuntunun aradan qaldırılması, təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsi və vurulmuş ziyanın aradan qaldırılması üçün tədbirlər görürlər;

b) tətbiq edilən qanunvericilikdə kolliziya olduqda düzgün qərarın qəbul edilməsi. Belə ki, müxtəlif səviyyəli normativ hüquqi aktların arasında uyğunsuzluq mövcud olduqda yuxarı səlahiyyətli dövlət orqanının qəbul etdiyi normativ hüquqi akt tətbiq edilməlidir; xüsusi qanun həmin münasibəti ümumi qanundan fərqli qaydada təsbit edirsə, onda xüsusi qanun tətbiq edilməlidir; yeni qanun əvvəlki qanundan fərqli müddəa müəyyən edirsə, yeni qanun tətbiq edilməlidir və s. Tətbiq olunan normativ hüquqi aktlar arasında kolliziya olduqda hüququn ümumi prinsipləri və normativ hüquqi aktların iyerarxiyası nəzərə alınmaqla həmin məsələ həll edilməlidir;

Ətraf mühitin mühafizəsinin prioriteti prinsipi. Bu prinsip də iki əsas cəhətin mövcudluğunu nəzərdə tutur:

a) təsərrüfat məqsədəuyğunluğu və ekoloji sistemlərin mühafizəsi mənafeləri

toqquşduqda qərar ekoloji sistemlərin qorunub saxlanması mənafeləri əsas götürülməklə qəbul edilir. Məsələn, xüsusi mühafizə olunan təbiət obyektlərinin yerləşdiyi torpaq sahələri təsərrüfat dövriyyəsindən çıxarılmışdırsa, onların təsərrüfat dövriyyəsinə qaytarılmasına yol verilmir.

Torpaqdan və digər təbii ehtiyatlardan istifadə təbiəti mühafizə, təbii sərvətləri qoruma xarakteri daşımalı və ətraf təbii mühitin digər tərkib hissələrinə təsirin məhdudlaşdırılmasını nəzərdə tutmalıdır;

b) müəyyən təbiət obyektlərindən istifadə digər təbii ehtiyatlara və bütövlükdə ətraf təbii mühitə zərər vurmamaq şərti ilə həyata keçirilməlidir.

Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinin

planlılığı prinsipi. Bu prinsip aşağıdakıları ehtiva edir:

a) ekologiyadan istifadənin tənzimlənməsi üzrə ən mühüm tədbirlər planlarda təsbit olunur. Həmin planlar yalnız təsdiqləndikdən sonra məcburi qüvvə alır. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 18 fevral 2003-cü il tarixli, 1152 saylı Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair» Milli Proqramda kənd təsərrüfatına yararlı torpaq ehtiyatlarının mühafizə edilməsi və münbitliyin artırılması məqsədilə milli fəaliyyət planının hazırlanması nəzərdə tutulmuşdur;

b) işlənib hazırlanmış plan və proqramların həyata keçirilməsinin nəticələrinə daim nəzarət olunmalıdır. Belə ki, torpaqlardan istifadə və onun mühafizəsinə nəzarətin, torpaqların monitorinqinin təşkil edilməsi, habelə vahid dövlət ekoloji monitorinq sisteminin yaradılması nəzərdə tutulmuşdur.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar planlaşdırmanın mahiyyəti tamamilə dəyişmişdir. Hazırda istənilən fəaliyyət sahəsində, o cümlədən təbii ehtiyatlardan istifadə və onun mühafizəsi sahəsində planlaşdırmanın mahiyyəti şaquli (mərkəzdən) idarəetmə sisteminin yaradılmasını yox, bazar mexanizminin inkişafına əsaslanan üfüqi təsərrüfat münasibətlərinin qurulmasını nəzərdə tutur. Belə münasibətlər müxtəlif müəssisələrin və iqtisadi fəaliyyət subyektlərinin səmərəli əməkdaşlığını təmin etməyə xidmət etməlidir.

Dövlət tənzimlənməsinin yerli özünüidarəetmə ilə uzlaşdırılması prinsipi aşağıdakılarda ifadə olunur:

1) vətəndaşların ekologiyadan istifadənin tənzimlənməsi işinə maksimum cəlb edilməsi. Qanunvericiliklə geniş kütlələrin bu işə cəlb edilməsinin üç forması nəzərdə tutulmuşdur:

a) birbaşa demokratiya. Bu zaman insanlar ekologiyadan istifadə və ətraf təbii mühitin mühafizəsi sahəsində qərarları bilavasitə özləri qəbul edirlər. Məsələn, «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin 1.5-ci bəndində qeyd edilir ki, vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin qanunvericilikdə müəyyən edilmiş qaydada ətraf mühitin mühafizəsinə aid yığıncaqlarda, mitinqlərdə, piketlərdə, yürüşlərdə və nümayişlərdə, referendumlarda iştirak etmək hüququ vardır;

b) nümayəndəli demokratiya. Xalq hakimiyyətinin həyata keçirilməsinin ən geniş

yayılmış bu forması vətəndaşlar tərəfindən ölkə parlamentinə, habelə bələdiyyələrə nümayəndələrin seçilməsini və həmin nümayəndələrin xalqın adından çıxış edərək təbiəti mühafizə və təbii sərvətlərdən istifadə sahəsində qanunlar və digər qərarlar qəbul etməsini nəzərdə tutur;

c) ekologiyadan istifadənin tənzimlənməsində digər birbaşa iştirak formaları. Belə ki, «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı maddəsi vətəndaşlara ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə ilə bağlı aşağıdakı hüquqları vermişdir:

— ətraf mühitin mühafizəsinə dair dövlət hakimiyyət orqanlarına və təşkilatlarına müraciət etmək;

— ictimai ekoloji ekspertiza haqqında təkliflər vermək;

— insan həyatına və ətraf mühitə mənfi təsir göstərən müəssisələrin, qurğuların və başqa ekoloji zərərli obyektlərin yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismara verilməsi haqqında qərarların inzibati və ya məhkəmə qaydasında ləğv edilməsini və həmçinin fiziki və hüquqi şəxslərin fəaliyyətinin məhdudlaşdı- rılmasını, müvəqqəti dayandırılmasını və hüquqi şəxslərin ləğv edilməsini tələb etmək;

— ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində təqsirkar təşkilatların, vəzifəli şəxslərin və vətəndaşların məsuliyyətə cəlb edilməsi barədə müvafiq orqanlar və məhkəmələr qarşısında iddialar qaldırmaq;

3) ekologiyadan istifadənin tənzimlənməsində demokratik başlanğıcların genişləndirilməsi hər kəsin həvalə olunmuş işə görə dəqiq göstərilmiş fərdi məsuliyyətinin müəyyən edilməsi ilə müşayiət olunmalıdır. Ona görə də müxtəlif dövlət hakimiyyət orqanlarının, habelə yerli özünüidarəetmə orqanlarının fəaliyyətində kollegiallıq və təkbaşçılıq prinsiplərinin uyğunlaşdırılınası həyata keçirilir. Məsələn, hər bir nazirlikdə mühüm qərarlar nazirliyin kollegiyası tərəfindən qəbul edilir və bu zaman kollegiyanın qərarı ilə razı olmayan üzv öz xüsusi rəyini ayrıca bildirə bilər.

## Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinin formaları, ekoloji funksiyaları və metodları.

Hər bir sistem çoxlu elementlərin olmasını (öz strukturunu) və həmin elementlər arasında birləşdirici əlaqələrin mövcudluğunu nəzərdə tutur. Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin tənzimlənməsi sistemində belə birləşdirici əlaqələr qismində tənzimləmə formaları, metodları və funksiyaları çıxış edir.

Tənzimləmə formaları tənzimləyici fəaliyyətin zahiri forması olub, hüquqa münasibətdə hüquqi və qeyri-hüquqi növə malikdir.

Tənzimləmənin qeyri-hüquqi formaları iki əsas növdə təzahür edir:

a) ekologiyadan istifadə və ətraf təbii mühitin mühafizəsi məsələləri üzrə həyata keçirilən və hüquqi xarakter daşımayan təsərrüfat sərəncamlarının verilməsi.

b) icraçıların öz funksiyalarını yerinə yetirmələri üçün zəruri vasitələrlə təmin

edilməsi.

Tənzimləmə formaları əksərən qeyri-hüquqi olur, çünki hüquqi formalar yalnız hüquqi yolla aradan qaldırılması mümkün olan ziddiyyətlərin yaranması halında tətbiq olunur.

Hüquqi formalar üç əsas növdə təzahür edir:

a) hüquq yaradıcı, yəni qanunların və başqa normativ aktların qəbul edilməsi;

b) hüquq tətbiqedici, yəni normativ hüquqi aktın həyata keçirilməsinə imkan verən hüquq tətbiqedici aktların qəbul edilməsi;

c) hüquq mühafizəedici, yəni hüquq normalarının pozulduğu hallarda həmin normaların sanksiyalarının tətbiqi.

Tənzimləmənin hüquqi metodları dörd növə ayrılır:

a) məcburi göstərişlər metodu, yaxud imperativ metod. O, heç bir kənaraçıxmaya yol verilmədən idarəetmə qərarının dəqiq və dönmədən yerinə yetirilməsini nəzərdə tutur.

b) tövsiyə metodu yerli şərtlərin və xüsusiyyətlərin nəzərə alınmasına yol verilən idarəetmə qərarlarının qəbul edilməsində ifadə olunur;

c) sanksiyalaşdırma metodu, yaxud məhdud özünüidarəetmə metodu idarəetmə qərarlarının idarə edilən orqanın özü tərəfindən qəbul edilməsini nəzərdə tutur, lakin həmin qərarlar yalnız səlahiyyətli orqan tərəfindən təsdiqləndikdən sonra qüvvəyə minir; ç) icazə metodu orqanların tam özünüidarəsini nəzərdə tutur. Bu zaman onlar heç kimin təsdiqinə ehtiyacı olmayan idarəetmə qərarlarını qəbul edirlər.

Ekologiyadan istifadə və ətraf mühitin mühafizəsi sahəsində idarəetmə və nəzarəti həyata keçirən dövlət orqanları öz funksiyalarını müəyyən metodların vasitəsilə icra edirlər.

İqtisadi metod təbiət obyektlərindən istifadənin pullu olmasını, ekoloji münasibətlərin tənzimi sahəsində səmərəli fəaliyyətin stimullaşdırılmasını, bəzi istisnalarla bütün təbiət obyektləri üzərində mülkiyyət hüququnu, təbii ehtiyatlardan qeyri-səmərəli istifadəyə görə məsuliyyətin müəyyən olunmasını, ekoloji münasibətlərin tənzimlənməsi sahəsində limitləşdirməni və normalaşdırma- nı nəzərdə tutur.

Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinin inzibati metodlarına təbiət obyektlərindən istifadə üçün icazənin verilməsi, dövlət ekoloji ekspertizasının həyata keçirilməsi aid edilməlidir.

Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinin təşkilati-hüquqi metodlarına ekologiyadan istifadənin təhlükəsiz həyata keçirilməsinin təmin edilməsi, ekologiyadan səmərəli istifadənin və ətraf mühitin mühafizəsinin təşkili, təbiət obyektlərinin dövlət uçotunun və dövlət kadastrının aparılmasının təşkili, təbiət obyektləri mülkiyyətçilərinin dövlət reyestrinin yaradılması, bütün təbiət obyektlərinin monitorinqinin təşkili aiddir.

Ekologiyadan istifadənin və ətraf mühitin mühafizəsinin dövlət tənzimlənməsinin forma və metodları müvafiq orqanların idarəetmə funksiyaları vasitəsilə həyata keçirilir.

«Funksiya» sözü latın dilindən tərcümədə «hərəkət», «fəaliyyət» deməkdir.

Növündən və səlahiyyət dairəsindən asılı olmayaraq hər bir idarəetmə orqanı aşağıda sadalanan ekoloji funksiyaları birbaşa və dolayısilə yerinə yetirir, yaxud onların yerinə yetirilməsində iştirak edir:

1. Təbii ehtiyatların və digər təbiət obyektlərinin uçotu və dövlət kadastrlarının aparılması funksiyası elmi cəhətdən əsaslandırılmış ekologiyadan istifadə və ətraf mühitin mühafizəsi tələbatı ilə şərtlənir.

Ekoloji münasibətlər sahəsində uçot funksiyasının aşağıdakı növlərini fərqləndirmək olar:

a) ekoloji uçot funksiyası ekoloji monitorinqin həyata keçirilməsində ifadə olunur. Bu tənzimləyici funksiyanın ekoloji xarakteri onda ifadə olunur ki, onun obyekti qismində ətraf mühitin deyil, müvafiq ekoloji sistemləri yaradan bütün təbiət obyektlərinin vəziyyətinin qeydə alınması çıxış edir.

b) iqtisadi uçot funksiyası qanunvericiliklə nəzərdə tutulmuş qaydada bütün təbii ehtiyatların (torpağın, yerin təkinin, meşələrin, suyun, bitki və heyvanlar aləminin və s.) kadastrlarının aparılmasında ifadə olunur.

2. Təbiət obyektlərinin istifadəsi və mühafizəsi üzrə tədbirlərin planlaşdırılması funksiyası təbiət obyektlərinin səmərəli istifadəsi və mühafizəsi tələbatından irəli gəlir.

Hal-hazırda ətraf mühitin mühafizəsi üzrə tədbirlərin planlaşdırılması sosial- iqtisadi inkişaf konsepsiyaları, ətraf mühitin mühafizəsi sahəsində müxtəlif səviyyəli məqsədli dövlət proqramları, şəhərsalma sənədləri və s. çərçivəsində həyata keçirilir.

3. Təbiət obyektlərinin bölgüsü və yenidən bölgüsü funksiyası onunla şərtlənir ki, onların səmərəli istifadə və mühafizə olunması üçün vətəndaşların və təşkilatların həmin təbiət obyektləri üzərində mülkiyyət münasibətləri mexanizminə daxil edilməsi zəruridir. Bu, təbiət obyektlərinin mülkiyyət, sahiblik, istifadə və ya icarə hüququ əsasında verilməsi yolu ilə həyata keçirilir.

4. Təbiət obyektlərinin bərpası funksiyası yalnız indiki nəslin deyil, həm də gələcək nəsillərin mənafeləri ilə şərtlənir, çünki indiki nəsil təbii ehtiyatları istehlak etməklə onların tam tükənməsinə yol verməməlidir.

Bərpa funksiyası əsasən aşağıdakı qeyri-hüquqi formalarla həyata keçirilir: torpağın məhsuldarlığının bərpası üçün zəruri gübrələrlə təminat, lazımi meşəsalma texnikasının verilməsi, yeni sututarların yaradılması üçün meliorasiya işlərinin görülməsi və s.

5. Təbiət obyektlərinin məkan-ərazi quruluşu işlərinin yerinə yetirilməsi funksiyası onların təbii xassələri — müəyyən məkan sahəsini tutması və daşınmaz olması ilə şərtlənir, çünki cəmiyyətin istehsal-təsərrüfat fəaliyyətinin bu və ya digər ərazinin sabit mövcud olan və hərəkətsiz şəraitinə bağlanması zəruridir. Bu məqsədlə qanunvericilikdə yerquruluşu, meşəquruluşu nəzərdə tutulmuş, müəyyən ərazilərdə heyvanlar aləmindən istifadəyə məhdudiyyətlər və qadağalar tətbiq edilmişdir.

Bu funksiyanı cəmiyyətin və təbiətin qarşılıqlı təsirini, insan həyatının bütün sahələrinin ahəngdar iqtisadi və ekoloji inkişafını təmin edən hüquqi mexanizm adlandırmaq olar.

6. Təbiət obyektlərindən istifadəyə və onların mühafizəsinə nəzarət funksiyası

ekologiyadan istifadə və ətraf mühitin mühafizəsi sahəsində tənzimləmənin bütün qalan funksiyaları üçün bünövrə rolunu oynayır, çünki qəbul edilmiş idarəetmə qərarlarının icrasına nəzarət olunmadan və aşkara çıxarılmış kənaraçıxmalara dair tədbirlər görülmədən bütün qalan funksiyalar məqsədinə çata bilməz.

7. Ekologiyadan istifadəyə dair mübahisələrin həlli funksiyası vətəndaşların və təşkilatların müxtəlif təbiət obyektlərindən istifadə etmələrinin gedişində yaranan kolliziyalarla şərtlənir.

Mübahisələrin həlli funksiyası müxtəlif dövlət orqanları — ümumi məhkəmələr, iqtisad məhkəmələri, habelə Azərbaycan Respublikasının müxtəlif inzibati orqanları tərəfindən həyata keçirilir. Məhkəmələrdə mübahisələrə baxılması qaydası Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi ilə tənzimlənir.

## MÖVZU 6. Ekoloji məsuliyyət və ekoloji hüquq pozuntuları.

Hüquqi məsuliyyət törədilmiş hüquq pozuntusuna görə pozulmuş hüquq normasının sanksiyasına müvafiq olaraq şəxsi, yaxud maddi xarakterli məhrumiyyətlərə məruz qalmaqdan ibarət spesifik vəzifədir.

Hüquqi məsuliyyət və ekoloji-hüquqi məsuliyyət bir-biri ilə bağlı olan üç aspektdə nəzərdən keçirilməlidir.

1. Hüquqi məsuliyyət və ekoloji-hüquqi məsuliyyət qanunvericiliklə müəyyən olunmuş tələblərin icrasına dair dövlət məcburetməsi kimi. Dövlət ekologiyadan istifadə və ətraf mühitin mühafizəsi sahəsi də daxil olmaqla ictimai həyatın bütün sahələrində qanunçuluğun və hüquq qaydasının təmin edilməsində maraqlı olduğundan, bunun üçün bütün zəruri tədbirləri görür.

Bu məqsədlərə çatılmasının əsas metodları inandırma və məcburetmədir. Bu zaman inandırma tədbirləri öndə dayanır, məcburetmə tədbirləri yardımçı xarakter daşıyır və bir qayda olaraq, inandırma tədbiri nəticə vermədikdə tətbiq olunur. Bu, ekoloji-hüquqi məsuliyyət üçün xüsusi əhəmiyyət kəsb edir, çünki ekoloji hüquq pozuntusu nəticəsində vurulmuş ziyan böyük olur və bəzən geridönməz xarakter daşıyır.

2. Hüquqi məsuliyyət və ekoloji-hüquqi məsuliyyət mühafizəedici hüquq münasibətləri çərçivəsində realizə olunan hüquq münasibəti kimi. Hüquq pozuntusu faktı subyekti dövlətlə müəyyən hüquqi əlaqə vəziyyətinə salır. Ekoloji-hüquqi məsuliyyətin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, hüquq münasibətinin tərəfi qismində çıxış edən orqanlar sırasına ümumi dövlət orqanlarından (məhkəmə, polis və s.) başqa, ekoloji hüquq pozuntularına dair işlərə baxmaq hüququnun verildiyi xüsusi orqanlar (məsələn, Ekologiya və Təbii Sərvətlər Nazirliyi) da daxildir.

3. Hüquqi məsuliyyət və ekoloji-hüquqi məsuliyyət hüquq institutu kimi. Ekoloji-hüquqi məsuliyyət institutu kompleks xarakter daşıyır, çünki müxtəlif hüquq sahələrinin (torpaq, əmək, mülki, inzibati, cinayət hüququ və s.) normalarını əhatə edir.

Hüquq pozuntusu qoruyucu hüquq münasibəti doğuran hüquqi faktdır. Belə hüquq

münasibəti müvafiq hüquq pozuntusunun törədilməsi anında yaranır və həmin faktın aşkar edilib-edilməməsindən, bu faktın səlahiyyətli orqanlarda araşdırma və baxılma predmeti olub-olmamasından asılı deyildir.

Hüquq pozuntusu barədə o zaman danışmaq olar ki, onu təşkil edən bütün elementlər mövcud olsun. Həmin elementlər — hüquq pozuntusunun obyekti, obyektiv cəhəti, subyektiv cəhəti və subyekti hüquq pozuntusunun tərkibini yaradır.

Təbiətdən istifadə və ətraf mühitin mühafizəsi sahəsində törədilmiş hüquq pozuntusunun spesifikliyi onu ekoloji hüquq pozuntusu kimi müəyyən etməyə imkan verir və aşağıdakılardan ibarətdir:

1. Ekoloji hüquq pozuntusunun obyekti qismində ekologiyadan səmərəli istifadə və ətraf mühitin mühafizəsi sahəsində ictimai münasibətlər çıxış edir.

Ekoloji hüquq pozuntularının obyekti qismində təbii sərvətlərdə maddiləşmiş mülkiyyət münasibətləri, təsərrüfat fəaliyyətində təbii sərvətlərdən istifadə qaydası, yaxud onlardan istifadə edilməsi üzrə ictimai münasibətlər, təbii sərvətlərin özləri və s. nəzərdən keçirilir.

2. Ekoloji hüquq pozuntusu obyektiv cəhətdən hər hansı hüquq pozuntusu kimi, hərəkət (qanunsuz olaraq ağac kəsmə), yaxud hərəkətsizlik (yerin təkindən istifadə edilərkən bina və qurğuların, eləcə də xüsusi mühafizə olunan ərazilərin və ətraf mühit obyektlərinin toxunulmazlığının təmin edilməməsi) yolu ilə törədilmiş hüquqazidd əməldir. Bir qayda olaraq, hüquqazidd əməlin törədilməsi müəyyən nəticələr doğurur: insana, təbiət elementlərinə zərər vurulur, iqtisadiyyata ziyan yetirilir və s.

3. Hüquq pozuntusu tərkibinin üçüncü əlamətini subyektiv cəhət təşkil edir ki, onun da başlıca elementi təqsirdir. Təqsir iki formada olur: qəsd (düzünə və dolayı) və ehtiyatsızlıq (səhlənkarlıq və özünəgüvənmə).

4. Ekoloji hüquq pozuntusunun subyekti qismində vətəndaşlar (müəyyən yaşa çatmış anlaqlı fiziki şəxslər) və hüquqi şəxslər çıxış edə bilər. Bir sıra hallarda xüsusi subyekt, yəni qanunda xüsusi əlamətlərlə göstərilmiş şəxs nəzərdə tutulur.

İstənilən hüquq pozuntusunun tərkib elementləri yuxarıda qeyd olunanlardır. Ekoloji hüquq pozuntusu da həmin tərkibə malikdir. Hüquq pozuntusu tərkibinin məzmunu hüquqi məsuliyyətin müvafiq növünün tətbiqindən asılı olaraq hüquq pozuntusunun növünü müəyyən edir. Ekoloji hüquq pozuntusu tərkibindən asılı olaraq intizam və ya inzibati xəta, habelə cinayət növündə ola bilər və həmin növlərə uyğun olaraq intizam, inzibati və cinayət məsuliyyət tədbiri tətbiq olunur. Ziyan vurulması, yaxud zərər yetirilməsi təqsirkarın başqa növ məsuliyyətə cəlb edilməsindən asılı olmayaraq mülki-hüquqi məsuliyyət doğurur.

Ekoloji hüquq pozuntusunu maddi ziyan, yaxud vətəndaşların sağlamlığına zərər vurulub-vurulmamasından asılı olmayaraq, təbiətdən istifadə və ətraf mühitin mühafizəsi sahəsində qanunvericilikdə qadağan olunmuş əməl kimi müəyyən etmək olar.

Ekoloji-hüquqi məsuliyyəti hamı tərəfindən qəbul olunmuş növlərə (intizam,

inzibati, cinayət, maddi məsuliyyət) ayırmaq olar. Lakin bu məsuliyyət növləri ekoloji qanunvericiliyin müddəaları və tələbləri nəzərə alınmaqla tətbiq olunur.

Ekoloji-hüquqi məsuliyyətin özünəməxsusluğu aşağıdakılardan ibarətdir;

— bütün ekoloji hüquq pozuntuları ətraf mühit sahəsində yaranır;

— qəsd obyektini ətraf mühitin onunla sıx bağlı olan komponenti təşkil edir (məsələn, süni yaradılmış sututarın çirkləndirilmə- si başqa tərkib əlamətlərindən asılı olaraq xüsusi əmlakı zədələ- mə, hətta xuliqanlıq kimi tövsif edilə bilər, lakin bu əməl heç bir halda ekoloji hüquq pozuntusu sayılmayacaqdır);

— ekoloji hüquq pozuntusu, bir qayda olaraq, iki obyektə malikdir: ətraf mühit və insan sağlamlığı (ona görə də, demək olar ki, sırf ekoloji hüquq pozuntusu tərkibi mövcud deyildir).

Ekoloji-hüquqi məsuliyyət hüquqi məsuliyyətin ənənəvi formalarında təzahür edir: cinayət, inzibati, mülki-hüquqi, intizam məsuliyyəti. Hər bir məsuliyyət növünə, o cümlədən ekoloji-hüquqi məsuliyyətə aşağıdakı əlamətlər xasdır:

— əməlin ictimai təhlükəlilik dərəcəsi (məsələn, inzibati xəta və ya cinayət);

— pozuntuya görə sanksiyaların uyğunluğu;

— yalnız öz hərəkətlərinə görə cavabdeh olan, onların ekoloji təhlükəliliyini başa düşən şəxslərin barəsində tətbiq edilməsi;

— vaxtında tətbiq edilməsi;

— səlahiyyətli orqanlar, yaxud şəxslər tərəfindən tətbiq edilməsi;

— sübuta yetirilmiş konkret qanun pozuntusuna görə tətbiq edilməsi;

— qanunla müəyyən edilmiş qaydalara riayət olunmaqla tətbiq edilməsi;

— buna zərurət olduqda tətbiq edilməsi (məsələn, müəyyən edilsə ki, şəxs onun barəsində məsuliyyət tədbiri tətbiq edilmədən də islah edilə bilər, onda belə tədbiri tətbiq etməmək də olar).

Beləliklə, hüquq pozuntusu məsuliyyətə cəlb etməyə imkan verən yaş həddinə çatmış və anlaqlı şəxsin, bəzi hallarda isə hüquqi şəxsin təqsirli hüquqazidd əməlidir (cinayət, inzibati xəta, intizam xətası, mülki-hüquqi pozuntu). Lakin hüquq pozuntusu o vaxt mövcud olur ki, onun bütün tərkib elementləri — obyekti, obyektiv cəhəti, subyekti və subyektiv cəhəti mövcud olsun. Bu zaman nəzərə almaq lazımdır ki, ətraf mühitin mühafizəsi, ekologiyadan istifadə və ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində bu tərkib elementlərinin bir sıra özünəməxsusluqları mövcuddur.

## Ekologiyadan istifadə sahəsində inzibati məsuliyyət.

İşəgötürən tərəfindən tətbiq edilən intizam məsuliyyətindən fərqli olaraq, inzibati məsuliyyət idarədənkənar xarakter daşıyır, çünki Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 357- ci maddəsinə müvafiq olaraq, inzibati xətalar haqqında işlərə rayon (şəhər) məhkəmələri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, seçki komissiyaları (kollegial orqan), Azərbaycan Respublikasının müxtəlif icra hakimiyyəti orqanları, Milli Bank (vəzifəli şəxslər) baxırlar.

Ölkəmizdə inzibati məsuliyyətin əsasları, inzibati məsuliyyətə cəlb etmənin qaydası,

inzibati xətaların dairəsi və həmin xətalara görə tətbiq olunan inzibati tənbeh tədbirləri Azərbaycan Respublikasının 2000-ci il iyulun 11-də təsdiq edilmiş və həmin il sentyabrın 1-də qüvvəyə minmiş İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmişdir. Həmin Məcəllədə ayrıca bir fəsil — «Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar» adlanan IX Fəsil (76-113-cü maddələr) ekoloji münasibətlər sahəsində inzibati xətalara həsr edilmişdir.

Ekologiyadan istifadə sahəsində inzibati məsuliyyət bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir:

— məsuliyyət yalnız qanunda göstərilmiş konkret inzibati xətalara görə yarana bilər;

— məsuliyyətin subyekti qismində inzibati xətaya görə məsuliyyətə cəlb edilə bilən istənilən şəxs (həm fiziki, həm də hüquqi şəxs) çıxış edə bilər;

— məsuliyyət tədbiri xüsusi səlahiyyətli orqanın, yaxud vəzifəli şəxsin səlahiyyətinə müvafiq surətdə tətbiq olunur;

— məsuliyyət tədbiri müəyyən prosessual qaydada (sübutların toplanması, iş üzrə icraatın başlanması, işə baxılması, qərar çıxarılması və s.) tətbiq olunur;

— vəzifəli şəxslər üçün məsuliyyətin fərqləndirilməsi nəzərdə tutulmuşdur. Belə ki, inzibati xəta tərkiblərinin təsbit edildiyi ayrı- ayrı maddələrdə eyni xətanın vəzifəli şəxs tərəfindən törədilməsinə görə adi vətəndaşla müqayisədə daha sərt tənbeh tədbiri və ya həmin tədbirin yuxarı həddi nəzərdə tutulmuşdur;

Ekoloji inzibati xətaların törədilməsinə görə qanunda daha çox cərimə növündə tənbeh tədbiri nəzərdə tutulmuşdur. Həmin cərimə inzibati xətalara baxmaq səlahiyyəti olan orqanların müvafiq qaydaya riayət etməklə çıxardığı qərarı əsasında tətbiq edilir.

Ekologiyadan istifadə sahəsində inzibati məsuliyyətin aşağıdakı özünəməxsus xüsusiyyətlərini qeyd etmək olar:

1. İntizam məsuliyyətinin tətbiq edildiyi hallardan fərqli olaraq, ekologiya sahəsində inzibati xəta törətmiş şəxsə tətbiq edilə bilən inzibati xətanın ümumi tərkibi qanunda nəzərdə tutulmamışdır. İnzibati tənbeh konkret inzibati xəta tərkibini ehtiva edən əmələ görə tətbiq olunur. Bu zaman hər bir xətaya görə konkret inzibati tənbeh nəzərdə tutulmuşdur.

2. Ekologiyadan istifadə sahəsində inzibati xətalar ekoloji cinayətlərlə müqayisədə daha az təhlükəlidir, bu səbəbdən də onların törədilməsinə görə inzibati tənbehlər daha yüngül xarakter daşıyır. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 23-cü maddəsi inzibati tənbeh tədbirlərinin dairəsini aşağıdakı kimi müəyyən etmişdir:

— xəbərdarlıq;

— inzibati cərimə;

— inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin ödənişlə alınması;

— inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi;

— inzibati xəta törətmiş fiziki şəxsinona verilmiş xüsusihüququnun məhdudlaşdırılması;

— əcnəbiləri və ya vətəndaşlığı olmayan şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma;

— inzibati həbs.

Göründüyü kimi, həmin tədbirlər sırasında azadlıqdan məhrumetmə kimi cəza mövcud deyildir. Ən sərt inzibati tənbeh tədbiri olan inzibati həbs 15 gün müddətinədək müəyyən edilir və tətbiq olunur.

3. İntizam məsuliyyəti tədbirləri kimi, inzibati tənbeh qaydasında tətbiq olunan tədbirlər də ətraf mühitə vurulmuş ziyanın əvəzinin ödənilməsi deyildir.

4. Ekologiyadan istifadə sahəsində inzibati məsuliyyət tədbirləri xüsusi səlahiyyətli vəzifəli şəxs, yaxud dövlət orqanı tərəfindən onun səlahiyyətinə müvafiq surətdə tətbiq olunur və onların səlahiyyətlərinin dairəsi qanunvericiliklə dəqiq müəyyən olunur.

5. İntizam tənbehi tədbirlərindən fərqli olaraq, inzibati məsuliyyət yalnız vətəndaşların və vəzifəli şəxslərin barəsində deyil, həm də hüquqi şəxslər barəsində tətbiq olunur. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 17-ci maddəsinə müvafiq olaraq, hüquqi şəxslər, o cümlədən xarici hüquqi şəxslər İnzibati Xətalar Məcəlləsi ilə nəzərdə tutulmuş inzibati xətalara görə ümumi əsaslarla inzibati məsuliyyətə cəlb olunurlar.

6. İnzibati məsuliyyət tədbirlərinin intizam məsuliyyəti tədbirlərinə nisbətən daha sərt xarakter daşıdığını nəzərə alan qanunverici həmin tədbirlərin tətbiqi zamanı bir sıra xüsusi şərtlərə riayət etməyi nəzərdə tutmuşdur. İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq, həmin şərtlərə inzibati tənbeh tətbiq edilərkən yüngülləş- dirici və ağırlaşdırıcı halların nəzərə alınması, habelə ədalətin təmin olunması üçün bəzi başqa şərtlər (müdafiəçinin iştirakı, tərcüməçinin iştirakı və s.) aid edilə bilər. İnzibati Xətalar Məcəlləsinin 33-cü maddəsi inzibati xətaya görə məsuliyyəti yüngülləşdirən aşağıdakı halları müəyyən etmişdir:

— inzibati xəta törətmiş şəxsin səmimi peşmançılığı;

— törədilmiş inzibati xətanın zərərli nəticələrinin inzibati xəta törətmiş şəxs tərəfindən aradan qaldırılması və ya vurulmuş zərərin əvəzinin könüllü surətdə ödənilməsi;

— inzibati xətanın yetkinlik yaşına çatmayanlar tərəfindən törədilməsi;

— inzibati xətanın hamilə qadın və ya himayəsində azyaşlı uşağı olan qadın tərəfindən törədilməsi.

Bundan başqa həmin Məcəllənin 33.2-ci maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının qanunvericiliyi ilə inzibati xətaya görə məsuliyyəti yüngülləşdirən başqa hallar da nəzərdə tutula bilər. İnzibati xətalar haqqında işlərə baxan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) qanunvericiliklə nəzərdə tutulmayan halları da məsuliyyəti yüngülləşdirən hallar hesab edə bilər.

İnzibati xətaya görə məsuliyyəti ağırlaşdıran halların dairəsi isə qəti müəyyən edilmişdir və aşağıdakıları nəzərdə tutur:

— səlahiyyətli şəxslərin hüquqazidd hərəkəti dayandırmağı tələb etdiklərinə baxmayaraq, bu hərəkətin davam etdirilməsi;

— inzibati xətaya görə inzibati tənbeh almış şəxsin eyni xətanı il ərzində təkrar törətməsi;

— yetkinlik yaşına çatmayanların inzibati xəta törətməyə cəlb edilməsi;

— inzibati xətanın bir qrup şəxs tərəfindən törədilməsi;

— inzibati xətanın təbii fəlakət şəraitində və ya başqa fövqəladə şəraitdə törədilməsi;

— inzibati xətanın sərxoş halda olan şəxs tərəfindən törədilməsi (Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 34- cü maddəsi).

## MÖVZU 7. Ekologiyadan istifadə sahəsində cinayət məsuliyyəti.

Qüvvədə olan Cinayət Məcəlləsi üzrə ekoloji cinayətləri iki qrupa bölmək olar: ümumi cinayətlər və xüsusi xarakterli cinayətlər. Ümumi ekoloji cinayətlər dedikdə, bütövlükdə ətraf təbii mühit üçün təhlükə kəsb edən kriminal əməllər başa düşülür.

Xüsusi xarakterli cinayət əməlləri isə ayrı-ayrı təbiət obyektlərinə və ekoloji sistemlərin konkret növlərinə qəsd edən ictimai təhlükəli əməllərdir. Belə əməllər sırasına Cinayət Məcəlləsinin 28-ci fəslində nəzərdə tutulmuş qalan bütün cinayət əməllərini aid etmək olar.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin «Ekoloji cinayətlər» adlanan fəslində nəzərdə tutulmuş cinayət tərkiblərini bilavasitə qəsd obyektindən asılı olaraq aşağıdakı növlərə təsnifləşdirmək olar:

1. Ekologiyadan istifadə sahəsində qüvvədə olan qaydaların pozulması:

247-ci maddə (işlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma);

248-ci maddə (ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma);

249-cu maddə (baytarlıq qaydalarını və bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma).

2. Əsas təbii komponentləri (suyu, havanı, torpağı və s.) korlama: 250- ci maddə (suyu (su mənbələrini) çirkləndirmə);

251-ci maddə (atmosferi (havanı) çirkləndirmə); 252- ci maddə (dəniz mühitini çirkləndirmə);

253-cü maddə (sahilyanı şelf haqqında AR qanunvericiliyini pozma); 254- cü maddə (torpaqları korlama);

255-ci maddə (yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma).

3. Heyvanlar aləminin (faunanın) mühafizəsi sahəsində ictimai münasibətlərə qəsd edən cinayətlor:

256-cı maddə (balıqları və başqa su heyvanlarını qanunsuz tutma); 257- ci maddə

(balıq ehtiyatlarının qorunması qaydalarını pozma); 258- ci maddə (qanunsuz ov etmə).

4. Bitkilər aləmi (flora) sahəsində ictimai münasibətlərə qəsd edən cinayətlər: 259-cu maddə (qanunsuz ağac kəsmə);

260-cı maddə (meşələri məhv etmə və ya korlama).

5. Xüsusi əhəmiyyətli ekoloji komplekslərin mühafizəsi və onlardan istifadə qaydalarına qəsd edən cinayət:

261-ci maddə (xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozma).

Ətraf mühitin mühafizəsi, ekologiyadan istifadə və ya ekoloji təhlükəsizlik sahəsində cinayət məsuliyyətinin əsas xüsusiyyətləri aşağıdakılardır:

— bu sahədə cinayət məsuliyyəti daha yüksək ictimai təhlü- kəliliyi ilə seçilən əməllərə görə yaranır ;

— cinayət məsuliyyətinə cəlb etmə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydalara ciddi riayət etməklə həyata keçirilir və cəzanın tətbiqi üçün yeganə əsas məhkəmə hökmüdür;

— cinayət törətməyə görə daha sərt məsuliyyət tədbirləri — müxtəlif növ cəzalar nəzərdə tutulmuşdur;

— cinayət məsuliyyətinə yalnız müəyyən yaş həddinə çatmış anlaqlı fiziki şəxslər cəlb edilirlər.

Ekoloji münasibətlər sahəsində cinayət məsuliyyətinin əsas özünəməxsusluqlarını aşağıdakı kimi ifadə etmək olar:

1. Ekologiyadan istifadə sahəsində cinayət məsuliyyəti ən yüksək ictimai təhlükəlilik dərəcəsinə malik ekoloji cinayətlərdən cəmiyyətin müdafiəsinin xüsusi formasıdır.

2. Ekologiyadan istifadə sahəsində cinayət məsuliyyəti yalnız xüsusi səlahiyyətli şəxslər tərəfindən Cinayət-Prosessual Məcəllə ilə müəyyən olunmuş xüsusi prosessual qaydada ibtidai araşdırma (təhqiqat və istintaq formasında) aparıldıqdan sonra məhkəmə tərəfindən tətbiq olunur. Ekoloji cinayətə görə cəza təyin edilməsinin yeganə əsasını məhkəmə hökmü təşkil edir.

3. Cinayət məsuliyyəti hüquqi məsuliyyətin digər növləri ilə müqayisədə ekoloji tələbləri və qaydaları pozan şəxslər barəsində daha sərt tədbirlərin tətbiqini nəzərdə tutur. Belə tədbirlər qismində azadlıqdan məhrum etmə, azadlığın məhdudlaşdırılması, islah işləri və s. cəzalar, habelə inzibati xətalara görə tətbiq olunan cərimələrdən dəfələrlə çox olan cərimə cəzası nəzərdə tutulmuşdur.

4. Təşkilatlar və onların struktur bölmələri cinayət məsuliyyətinə cəlb edilə bilməzlər. Cinayət məsuliyyətinin subyekti qismində yalnız fiziki şəxslər çıxış edə bilər. Fiziki şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi üçün müəyyən yaş həddinə çatması və anlaqlı olma tələb edilir.

5. Qüvvədə olan qanunvericilikdə ekoloji cinayət tərkibləri cinayətin obyektindən asılı olaraq təsbit edilmişdir.

Beləliklə, ekoloji münasibətlər sahəsində cinayət məsuliyyəti müəyyən olunmuş ekoloji hüquq qaydasına, cəmiyyətin ekoloji təhlükəsizliyinə qəsd edən, ətraf mühitə və

insan sağlamlığına ziyan vuran və yüksək ictimai təhlükəliliyi ilə seçilən əməllərə görə nəzərdə tutulmuşdur. Cinayət məsuliyyəti yalnız cinayət qanununda nəzərdə tutulmuş əməlləri törətməyə görə baş verir və təqsirli şəxsə məhkəmənin hökmü ilə cəza təyin edilməsinə səbəb ola bilər.

## MÖVZU 8. Torpaq, torpaqdan istifadənin ekoloji-hüquqi rejiminin obyekti kimi.

Torpaq ekoloji-hüquqi rejimin mühüm obyektini təşkil edir.

Torpaq təbiətin bütün qalan ünsürləri arasında aparıcı mövqe tutur və yalnız ona məxsus bir sıra xüsusiyyətlərə malikdir.

Məqsədli təyinatınamüvafiq surətdə Azərbaycan Respublikasının bütün torpaqları yeddi kateqoriyaya ayrılır:

1) kənd təsərrüfatı təyinatlı torpaqlar;
2) yaşayış məntəqələrinin torpaqları;
3) sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar;
4) xüsusi qorunan ərazilərin torpaqları;
5) meşə fondu torpaqları;
6) su fondu torpaqları;
7) ehtiyat torpaqları.

Torpaqların istifadəsinin ərazi planlaşdırılmasında kənd təsərrüfatı ehtiyacları üçün nəzərdə tutulmuş torpaq sahələri kənd təsərrüfatı təyinatlı torpaqlar sayılır.

Kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə kənd təsərrüfatı yerləri (uqodiyaları), meşə zolaqlarının, təsərrüfatdaxili yolların, kommunikasiyaların, bataqlıqların, sututarların, kənd təsərrüfatının aparılması üçün vacib olan tikili və qurğuların altında olan torpaqlar daxildir.

Şəhər, qəsəbə və kəndlərin hüdudları daxilindəki bütün torpaqlar yaşayış məntəqələrinin torpaqları hesab edilir. Yaşayış məntəqələrinin torpaqlarının tərkibinə aşağıdakılar daxildir: ictimai və yaşayış tikinti massivlərində yerləşən yaşayış, mədəni-məişət, inzibati, ibadət və digər bina, tikili və qurğular altındakı, habelə bunlar üçün nəzərdə tutulan torpaq sahələri; ümumi istifadədə olan torpaqlarda yerləşən meydan, küçə, keçid, yol, sahil, park, meşə-park, xiyaban, bulvar, çimərlik və əhalinin ictimai tələbatının ödənilməsinə xidmət edən digər obyektlər altındakı torpaq sahələri; sənaye, kommersiya, kommunal, anbar tikinti massivlərində sənaye, kommunal, anbar tikililəri altında olan və bu kimi istehsal obyektlərinin inşası üçün nəzərdə tutulan torpaq sahələri və s.

Sənaye, rabitə, nəqliyyat, ticarət, ictimai iaşə və digər istehsal və xidmət obyektlərinin yerləşdirilməsi (tikinti, yenidənqurma, genişləndirmə işlərinin aparılması) və fəaliyyəti üçün qanunvericiliklə müəyyən edilmiş qaydada ayrılan və əldə edilən torpaq sahələri sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqlar sayılır.

Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların fiziki və hüquqi şəxslərin

istifadəsinə və icarəsinə verilməsini öz səlahiyyəti daxilində yerli icra hakimiyyəti orqanları və bələdiyyələr həyata keçirirlər.

Hərbi hissələrin, hərbi təhsil (təlim) müəssisələrinin, müdafiə və təhlükəsizlik orqanları müəssisələrinin, idarələrinin və təşkilatlarının daimi yerləşdirilməsi və fəaliyyət göstərməsi üçün verilmiş torpaqlar müdafiə və təhlükəsizlik təyinatlı torpaqlar hesab edilir.

Mühafizə, sanitariya və qoruyucu zonaları müəyyən edilən, hərbi obyektlərin tikintisi üçün verilən torpaq sahələri həmin zonaların əhatə etdiyi torpaqlarla birlikdə təhkim edilir, kənd təsərrüfatı və meşə təsərrüfatı itkilərinin əvəzi ümumi sahə üçün ödənilir.

Xüsusi qorunan ərazilərin torpaqlarına aşağıdakılar aid edilir:

— təbiəti mühafizə təyinatlı torpaqlar;

— təbii qoruq təyinatlı torpaqlar;

— sağlamlaşdırma təyinatlı torpaqlar;

— istirahət (rekreasiya) təyinatlı torpaqlar;

— tarix-mədəniyyət təyinatlı torpaqlar1.

Meşə bitkiləri ilə örtülü olan, habelə bu bitkilərlə örtülü olmayan, lakin meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulan meşə və qeyri-meşə torpaqları meşə fondunun torpaqları hesab edilir. Meşə fondu torpaqları əsasən meşə təsərrüfatının aparılması və genişlənməsi (meşələrin bərpası, meşələr salınması vəi.a.) məqsədləri üçün istifadə edilir.

Meşə fondu torpaqlarından meşə təsərrüfatını aparmaq üçün meşə təsərrüfatı orqanları, habelə öz nizamnamə fəaliyyətinin həyata keçirilməsini təmin etmək üçün meşə fondu torpaqlarının təhkim olunduğu digər dövlət və qeyri-dövlət müəssisələri, idarələri və təşkilatları istifadə edirlər.

Su fondunun torpaqlarına aşağıdakı torpaq sahələri daxildir: Azərbaycan Respublikasının daxili sularının və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin altında olan torpaqlar; su mühafizə zonalarının və sahilboyu zolaqların altında olan torpaqlar, adalar və bataqlıqlar; hidrotexniki qurğuların, meliorasiya və su təsərrüfatı obyektlərinin altında olan torpaqlar.

Ehtiyat fondu torpaqları dövlət və bələdiyyə ehtiyat torpaqlarından ibarətdir. Dövlət ehtiyat fondu torpaqlarına bələdiyyələrin, vətəndaşların və hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və icarəsinə verilməmiş dövlət torpaqları daxildir. Dövlət ehtiyat fondu torpaqlarına istifadə hüququna xitam verilən, habelə konservasiya nəticəsində təsərrüfat dövriyyəsindən çıxarılmış torpaq sahələri aid edilir.

Bələdiyyələrin ehtiyat fondu torpaqlarına Torpaq Məcəlləsinin 47-ci maddəsinin 5-ci bəndi ilə müəyyən olunmuş aşağıdakı torpaqlar aid edilir:

— yaşayış məntəqələrinin perspektiv inkişafı üçün cəlb olunan torpaqlar;

— hüquqi və fiziki şəxslərin istifadə və icarə hüququna xitam verilən bələdiyyə torpaqları;

— ehtiyat məqsədləri daşıyan digər bələdiyyə torpaqları

## Torpaqların hüquqi mühafizəsi. Torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyət.

Torpaqların mühafizəsi torpaqların ekoloji-hüquqi rejimində mühüm əhəmiyyət kəsb edən ünsürlərdən biridir. Torpağın mühafizəsinin məqsədi torpağın tükənməsinin və torpağın üst qatının çirklənməsinin qarşısını almaqdan ibarətdir.

Torpağın mühafizəsinin məqsədləri aşağıdakılardır:

— torpaqların aşınmasının, çirklənməsinin, sıradan çıxmasının, xarab olmasının və təsərrüfat fəaliyyətinin başqa mənfi (zərərli) təsirlərinin qarşısının alınması;

— aşınmaya, çirklənməyə məruz qalmış, sıradan çıxmış, xarab olmuş və təsərrüfat fəaliyyətinin başqa mənfi (zərərli) təsirinə məruz qalmış torpaqların bərpasının və yaxşılaşdırılmasının təmin edilməsi.

Torpaqların mühafizəsi hüquqi, təşkilati, iqtisadi və digər tədbirlər sistemindən ibarət olub, məzmun etibarilə iki növ tədbirlər kompleksinə ayrılır: torpaqların tükənmədən və çirklənmədən qorunması.

Torpaqların mühafizəsi, zona və region xüsusiyyətləri nəzərə alınaraq onlara mürəkkəb təbii (ekoloji) sistemlər kimi kompleks yanaşılması əsasında təbiətin mühafizəsini, təbii ehtiyatlara qənaəti və torpaqların qorunub saxlanmasını, bitki və heyvanlar aləminə, geoloji törəmələrə və ətraf mühitin digər tərkib hissələrinə zərərli təsirin məhdudlaşdırılmasını nəzərdə tutur.

Torpaqların mühafizəsinin iqtisadi cəhətdən stimullaşdırılması torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin torpağın münbitliyinin qorunması və yüksəldilməsində marağının artırılması, təsərrüfat fəaliyyətinin zərərli təsirindən torpaqların qorunması məqsədilə həyata keçirilir.

Torpaqların mühafizəsi mürəkkəb ekoloji sistem kimi, torpağa kompleks yanaşma əsasında həyata keçirilir. Bu fəaliyyət aşağıdakı məqsədləri güdür:

— torpaqların aşınmasının və tənəzzülünün qarşısının alınması;

— torpaq mülkiyyətçilərinə, sahiblərinə, istifadəçilərinə və icarəçilərinə onların torpaqlarının pisləşməsinə görə kompensasiya verilməsi;

— aşınmaya məruz qalmış torpaqların bərpasının və yaxşılaşdırılmasının təmin edilməsi;

— torpaqların ekoloji vəziyyətinin uçotu və yoxlanılması mexanizminin yaradılması;

— torpaq mülkiyyətçilərinin, sahiblərinin, istifadəçilərinin və icarəçilərinin torpaq sahələrindən səmərəli istifadə rejimlərinin ekoloji normativləri ilə təmin edilməsi.

Göstərilən məqsədlərin həlli üçün torpaq mülkiyyətçilərinin, sahiblərinin, istifadəçilərinin və icarəçilərinin torpaqların səmərəli təşkilini həyata keçirməsi, torpaqların məhsuldarlığını bərpa etməsi və yüksəltməsi tələb olunur. Yeni torpaq qanunvericiliyində xüsusi vurğulanır ki, torpaqların vəziyyətinə mənfi təsir göstərə biləcək obyektlər, tikililər və qurğular yerləşdirilərkən, layihələşdi- rilərkən, inşa olunarkən və istismara verilərkən, habelə yeni texnologiyalar tətbiq olunarkən torpaqların mühafizəsi

tədbirləri nəzərə alınmalı və həyata keçirilməlidir. Torpaqların vəziyyətinə mənfi təsirin və nəzərdə tutulmuş mühafizə tədbirlərinin səmərəliliyinin qiymətləndirilməsi, dövlət sanitar-gigiyena və ekoloji ekspertizasının nəticələri əsasında həyata keçirilir.

Torpaqdan səmərəli istifadə tələbi torpağın mühafizəsindən ayrılmazdır.

Torpaqdan səmərəsiz istifadə onun yerinə yetirdiyi vəzifələrin həyata keçməməsinə, təbii xassələrinin aşağı düşməsinə gətirib çıxarır. Ona görə də torpaqların mühafizəsinin məqsədini torpağın tükənməsinin və çirklənməsinin qarşısının alınması, torpağın məhsuldarlığının yüksəldilməsi və onun təbii xassələrinin qorunması təşkil edir.

Torpaqların çirkləndirilməsi torpağa insanın sağlamlığı, bitkilər və heyvanlar aləmi üçün zərərli tullantıların daxil olması nəticəsində onların fiziki-kimyəvi tərkibinin dəyişməsində ifadə olunur.

Torpaq qanunvericiliyi bütün torpaq istifadəçiləri üçün torpaqların çirklənməsinə yol verməmək vəzifəsini müəyyən etmişdir. Çirklənmə mənbələrini sənaye, kənd təsərrüfatı müəssisələrinin və digər müəssisələrin tullantıları, təmizlənməmiş axın suları, neft, neft məhsulları, kimyəvi maddələr, məişət tullantıları təşkil edir. Torpaqların mühafizəsi o halda səmərə verir ki, torpaqlardan rasional istifadə təmin edilsin, torpaqların məhsuldarlığı yüksəldilsin.

Torpaq hüquqlarının pozulması qanunvericiliklə müxtəlif məsuliyyət növlərinin yaranmasına səbəb olur. Torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyət bir sıra xüsusiyyətlərə malikdir. Torpaq qanunvericiliyinin pozuntularının bir neçə qrupunu fərqləndirmək olar:

— torpaq mülkiyyətçilərinin, sahiblərinin, istifadəçilərinin və icarəçilərinin müəyyən edilmiş qaydaların pozulması ilə torpağın alqı-satqısı, bağışlanması, dəyişdirilməsi, girov qoyulması və digər əqdlərin həyata keçirilməsi;

— torpaqlardan təsərrüfatsızcasına istifadə, onların korlanması, torpağın külək, su eroziyasından və torpağın vəziyyətini pisləşdirən digər proseslərdən mühafizəsi və yaxşılaşdırılması üzrə tədbirlərə riayət edilməməsi nəticəsində torpağın çirklənməsi və

s. ilə bağlı olan pozuntular.

Torpaq qanunvericiliyinin pozulmasında təqsirli olan şəxslər mülki, inzibati, yaxud cinayət məsuliyyəti daşıyırlar.

Torpaq qanunvericiliyinin müəssisələrin, idarələrin və təşkilatların vəzifəli şəxsləri və digər işçiləri tərəfindən pozulması halında həmin şəxslər barəsində intizam məsuliyyəti tədbirləri də tətbiq olunur.

Müstəsna hallarda torpaq qanunvericiliyinin pozulmasına görə torpağın geri alınması kimi məsuliyyət tədbiri tətbiq olunur.

Torpaq istifadəçiləri və icarəçiləri tərəfindən özgənin mülkiyyətində olan torpağın alınıb-satılması, bağışlanması, torpaq sahələrinin özbaşına dəyişdirilməsi barədə bağlanılan əqdlər, habelə torpaq mülkiyyətçilərinin Torpaq Məcəlləsində nəzərdə tutulmuş qaydaları pozmaqla bağladıqları əqdlər etibarsız hesab edilir.

Aşağıdakı hərəkətlərin törədilməsində təqsiri olan şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar:

-Torpaq Məcəlləsinin 109-cu maddəsində göstərilən əqdlərin (özgənin mülkiyyətində olan torpağın alınıb-satılması, bağışlanması, torpaq sahələrinin özbaşına dəyişdirilməsi barədə bağlanılan əqdlərin) bağlanılması;

-torpaq sahələrinin özbaşına tutulması; torpaq sahələrində qanunsuz tikinti aparılması; torpaqların kateqoriyalarının qanunvericiliyə riayət edilmədən dəyişdirilməsi;

-torpaqların zibilləndirilməsi, istehsalat və məişət tullantıları ilə, kimyəvi və radioaktiv maddələrlə, habelə çirkab suları ilə çirklən- dirilməsi, bakterial-parazitik və zərərli karantin orqanizmlərlə yoluxdurulması;

-torpaqları yaxşılaşdırmaq və onları külək, su eroziyasından və torpaqların münbitliyini pisləşdirən digər proseslərdən mühafizə etmək üçün məcburi tədbirlərin görülməməsi;

-torpaqların (o cümlədən meşə torpaqlarının) münbit qatının korlanması;

-torpağın vəziyyətinə zərərli təsir göstərən obyektlərin layihə- ləşdirilməsi, tikilməsi və istismara verilməsi;

-müvəqqəti istifadəyə və icarəyə verilən torpaqların vaxtında qaytarılmaması və ya onları təyinatı üzrə istifadə etmək üçün yararlı hala salmaq barədəki öhdəliklərin yerinə yetirilməməsi, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 80-130 metrlik zolağının altında olan torpaqmsahələrinin hasara alınması yolu ilə və ya digər üsullarla bağlanılması və dənizin sahilinə gediş- gəlişin məhdudlaşdırılması;

-mülkiyyətdə və istifadədə olan torpaqların hüdudlarının, mərz nişanlarının məhv edilməsi;

-torpaqların dövlət uçotundan, qeydiyyatından gizlədilməsi, kəmiyyət və keyfiyyətinə dair məlumatların təhrif edilməsi;

-torpaq sahələrində meteoroloji şəbəkələrin və ölçü vasitələrinin, geodeziya- istinad məntəqələrinin və yerüstü nişanların, habelə meliorasiya və irriqasiya sistemlərinin sıradan çıxarılması.

## MÖVZU 9. Yerin təkindən istifadə və onun mühafizəsinin ekoloji-hüquqi rejimi.

Yerin təki təbii mühit sistemində torpaqla ən yaxın surətdə bağlı olan element kimi çıxış edir. Yerin təki dedikdə, yerin qabığının torpaq qatından aşağıda, torpaq qatı olmadıqda isə yerin səthindən və sututarların səthindən aşağıda yerləşən, geoloji cəhətdən öyrənilməsi və mənimsənilməsi mümkün olan dərinliklərə qədər uzanan hissəsi başa düşülür.

Yerin təki haqqında qanunvericilik Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub bölməsində yer təkinin öyrənilməsi (axtarış, kəşfiyyat), onun səmərəli istifadəsi, mühafizəsi və görülən işlərin təhlükəsizliyi ilə əlaqədar münasibətləri tənzimləyir, yerin təkindən istifadədə dövlətin, yer təki istifadəçilərinin və vətəndaşların mənafelərinin qorunmasını təmin edilməsi ilə bağlı

münasibətləri tənzimləyir. Yerin təki haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, «Yerin təki haqqında» 13 fevral 1998- ci il tarixli Azərbaycan Respublikasının Qanunundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və beynəlxalq müqavilələrindən ibarətdir.

Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları özlərinin səlahiyyətləri daxilində yerin təkinin öyrənilməsinə, ondan səmərəli istifadə edilməsinə dair dövlət proqramlarını təsdiqləyir, yerin təkindən istifadə, yerin təkinin mühafizəsi məsələlərini həll edirlər. «Yerin təki haqqında» 13 fevral 1998-ci il tarixli Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinə əsasən yerin təkindən istifadə münasibətlərinin tənzimlənməsində dövlət aşağıdakı vəzifələri həyata keçirir:

-yerin təki ilə bağlı dövlət siyasətini həyata keçirmək; yerin təkindən istifadə məqsədi ilə torpaq sahələrini ayırmaq; yerin təkindən istifadə və onun mühafizəsi, mineral-xammal ehtiyatlarının səmərəli işlənməsi qaydalarını müəyyənləşdirmək, müvafiq standartların (normativ və qaydaların), faydalı qazıntı ehtiyatlarının və proqnoz resurslarının təsnifatını hazırlamaq;

-yer təkinin geoloji öyrənilməsinə, istifadəsinə və mühafizəsinə dair beynəlxalq müqavilələri bağlamaq, xüsusi razılıq sistemini tətbiq etmək;

-yer təki istifadəçilərinin hüquqlarını və yerin təkindən istifadə ilə əlaqədar Azərbaycan Respublikası vətəndaşlarının mənafelərini qorumaq;

-yer təkinin geoloji öyrənilməsi və mineral-xammal bazasının inkişafı sahəsində dövlət proqramlarını hazırlamaq və həyata keçirmək;

-yerin təkindən istifadəyə görə haqq ödənilməsi qaydasını müəyyənləşdirmək;

-mineral-xammal bazasının genişləndirilməsini və yer təkinin geoloji öyrənilməsini maliyyələşdirən dövlət fondunu formalaşdırmaq;

-yer təkinin geoloji informasiya fondunu formalaşdırmaq, ondan istifadə qaydasını müəyyənləşdirmək;

-yerin təkində kəşf edilmiş faydalı qazıntı ehtiyatlarını və yer təkinin xüsusiyyətlərini qiymətləndirən geoloji informasiyanı dövlət ekspertizasından keçirmək;

Yerin təkindən istifadə üzrə idarəçiliyi Azərbaycan Respublikasının prezidenti, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir. Faydalı qazıntıların çıxarılması isə yer təkinin istifadəçilərinin funksiyalarına aiddir.

Yerin təkindən səmərəli istifadəyə və onun mühafizəsinə dövlət nəzarəti istifadəçilər tərəfindən mövcud qanunvericiliyə, yer təkinin geoloji öyrənilməsi, istifadəsi və mühafizəsi sahəsində müəyyən edilmiş standartlara (normativlərə, qaydalara), dövlət uçotu və hesabatı qaydalarına riayət olunmasını təmin etmək məqsədi ilə həyata keçirilir.

Yer təkinin geolcii öyrənilməsinə, səmərəli istifadəsinə və mühafizəsinə dövlət nəzarəti Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, habelə Azərbaycan Respublikasının prezidenti tərəfindən müəyyən edilmiş digər orqanlar tərəfindən həyata keçirilir.

Yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması üzərində dövlət nəzarətini Fövqəladə Hallar Nazirliyi həyata keçirir.

Yer təkinin geoloji öyrənilməsi, faydalı qazıntıların çıxarılması, eləcə də onların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün verilən yer təki sahələri və onlarla əlaqədar müvafiq işlər dövlət uçotuna və dövlət qeydiyyatına alınır. Dövlət uçotu və dövlət qeydiyyatı Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən vahid sistem üzrə aparılır. Dövlət qeydiyyatı olmadan yerin təkindən istifadə ilə əlaqədar işlərin aparılması qadağandır.

Azərbaycan Respublikasında yerin təkinin mühafizəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Yerin təki haqqında qanunvericilik yerin təkindən istifadə ilə bağlı işlərin təhlükəsiz görülməsinə verilən əsas tələbləri müəyyən edir. İcra hakimiyyəti orqanları, yerin təkinin istifadəçiləri və dövlət dağ-mədən nəzarəti orqanları özlərinin səlahiyyətləri çərçivəsində qanunvericiliyin tələblərinin yerinə yetirilməsini təmin etməyə borcludur. Yerin təkindən istifadə ilə bağlı olan işlərin təhlükəsiz aparılmasının təmin edilməsinə görə bilavasitə məsuliyyəti müəssisə rəhbərləri daşıyırlar.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yer təkinin istifadəçiləri yer təkinin istifadəsi ilə əlaqədar işlərin təhlükəsiz görülməsi üzrə təsdiq edilmiş standartların (normativlərin, qaydaların) tələblərinin yerinə yetirilməsini təmin etməlidirlər.

Yer təkinin istifadəçiləri dağ-mədən xilasetmə, açıq neft və qaz fontanlarının qarşısını alan və onları ləğv edən dəstələr yaratmalı, yaxud müqavilə yolu ilə müvafiq xidmətlərdən istifadə etməlidirlər.

Yerin təkindən istifadə ilə əlaqədar işlər aparan müəssisələrin rəhbərləri, digər səlahiyyətli vəzifəli şəxsləri həmin müəssisələrin işçilərinin, işlərin təsir zonasında yerləşən əhalinin həyat və sağlamlığına bilavasitə təhlükə yaranarkən, dərhal işləri dayandırıb insanların təhlükəsiz yerə keçirilməsini təmin etməli və Fövqəladə Hallar Nazirliyinə və Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təcili məlumat verməlidirlər.

Faydalı qazıntılar yerləşən sahələrdə yaşayış məntəqələrinin, sənaye komplekslərinin və digər təsərrüfat obyektlərinin layihələşdirilməsinə və tikintisinə dair işlərin aparılmasına, eləcə də həmin sahələrdə yeraltı qurğuların yerləşdirilməsinə faydalı qazıntıların çıxarılmasının mümkünlüyünü və tikinti işlərinin iqtisadi cəhətdən məqsədəuyğunluğunu, habelə dağ-mədən işlərinin təhlükəsiz aparılmasını və yerli şəraiti nəzərə almaqla Fövqəladə Hallar Nazirliyi tərəfindən icazə verilir.

Faydalı qazıntılar yerləşən sahələrdə özbaşına aparılan tikinti işləri, onlara qoyulan vəsait, tikililərin sökülməsinə və sahənin rekultivasiyasına çəkilən xərclər ödənilmədən dayandırılır.

Xüsusi razılığın qüvvədə olması müddəti başa çatdıqda, yaxud yerin təkindən istifadə hüququna vaxtından əvvəl xitam verildikdə faydalı qazıntıların çıxarılması üzrə müəssisələr və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğular ləğv və ya konservasiya edilməlidir.

Yerin təkindən istifadə zamanı elm və mədəniyyət üçün maraq doğuran nadir geoloji və mineraloji törəmələr, meteoritlər, paleontoloji, arxeoloji və digər obyektlər aşkar edilərkən yer təkinin istifadəçiləri müvafiq sahədə həmin işləri dayandırır və xüsusi razılıq verən orqana bu barədə məlumat verir.

Yerin təkinin təbiət təzahürlərinin zərərli təsirindən mühafizəsi də nəzərdə tutulur. Müvafiq tələblərdən hər hansı birinin pozulması halında yerin təkindən istifadə məhdudlaşdırıla, dayandırıla, yaxud qadağan edilə bilər.

Qanunvericilikdə yerin təkindən istifadənin yaxşılaşdırılmasını və onun mühafizəsinin gücləndirilməsini stimullaşdıran yerin təkinin istifadəçilərinin maddi və mənəvi həvəsləndirilməsi tədbirləri nəzərdə tutulur.

Yerin təki haqqında qanunvericilik həmçinin torpağın mühafizəsinə yönəlmiş tədbirləri nəzərdə tutur. Bundan başqa, Azərbaycan Respublikasının kontinental şelfinin səthində və dəniz dibinin təkində olan mineral ehtiyatların da hüquqi mühafizəsi təmin olunmalıdır.

## MÖVZU 10. Sudan istifadə və onun mühafizəsinin ekoloji- hüquqi rejimi.

Su xüsusi ekoloji funksiyanı yerinə yetirən əvəzolunmaz təbii sərvətdir. O, insanın həyat fəaliyyətini, təbiətin mövcudluğunu və inkişafını təmin edir. Su böyük ekoloji əhəmiyyətə malikdir. Azərbaycan Respublikasında sudan istifadənin hüquqi rejimi 26 dekabr 1997-ci il tarixli Azərbaycan Respublikasının Su Məcəlləsi ilə tənzimlənir. Azərbaycan Respublikasının daxili suları və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi (su obyektləri) Azərbaycan Respublikasının su fondunu təşkil edir. Su münasibətlərinin obyektləri Azərbaycan Respublikasının su fondu və su fondunun torpaqlarıdır.

Su fondu torpaqlarına aşağıdakı torpaq sahələri daxildir:

-Azərbaycan Respublikasının daxili sularının və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin (su obyektlərinin) altında olan torpaqlar;

-su mühafizəsi zonalarının və sahilboyu zolaqların altında olan torpaqlar, adalar və bataqlıqlar;

-hidrotexniki qurğuların, meliorasiya və su təsərrüfatı obyektlərinin altında olan torpaqlar.

Dövlətlərarası sərhədi müəyyən edən, sərhədi kəsib keçən, yaxud üzərindən Azərbaycan Respublikasının dövlət sərhədi keçən yerüstü və yeraltı su obyektləri sərhəd su obyektlərinə aid edilir.

Azərbaycan Respublikası Su Məcəlləsinin 12-14-cü maddələrinə görə, su obyektləri üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət mövcud ola bilər.

Dövlət mülkiyyətində aşağıdakı su obyektləri saxlanılır:

-Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi;

-sərhəd su obyektləri;

-dövlət və yerli əhəmiyyətli yerüstü və yeraltı su obyektləri;

-xüsusi qorunan su obyektləri.

Dövlət mülkiyyətində olan su obyektləri qanunvericilikdə müəyyən edilmiş qaydada istifadəyə, icarəyə və bələdiyyə mülkiyyətinə verilə bilər. Dövlət mülkiyyətində olan su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində dövlət idarəetməsini Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti həyata keçirirlər.

Bələdiyyə mülkiyyətində olan torpaq sahələrində yerləşən yerli əhəmiyyətli su obyektləri bələdiyyə mülkiyyətinə verilir. Bələdiyyə mülkiyyətində olan su obyektləri Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada ümumi istifadəyə, fiziki və hüquqi şəxslərin istifadəsinə, icarəsinə, habelə Azərbaycan Respublikası vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə verilə bilər. Bələdiyyə mülkiyyətində olan su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində dövlət idarəetməsini qanunvericiliklə onlara verilmiş səlahiyyətlər daxilində bələdiyyələr həyata keçirirlər.

Xüsusi mülkiyyətdə olan torpaq sahələrində yerləşən, başqa su obyektləri ilə hidravliki əlaqəsi və axarı olmayan kiçik sututarlar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada xüsusi mülkiyyətə verilə bilər. Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslərə və xarici dövlətlərin hüquqi şəxslərinə su obyektləri xüsusi mülkiyyətə verilə bilməz.

Su fondunun istifadəsi və mühafizəsi sahəsində dövlət orqanlarının əsas funksiyalarına aşağıdakılar aiddir:

— su obyektlərindən səmərəli istifadənin planlaşdırılması;

— su obyektlərinin dövlət monitorinqinin, dövlət su kadastrının aparılması və suların dövlət uçotunun həyata keçirilməsi;

— su obyektlərinin vəziyyətinə təsir göstərən obyektlərin inşasına və yenidən qurulmasına dair sənədlərin dövlət ekspertizasının aparılması;

— su obyektlərinin istifadəsinə və mühafizəsinə, su mühafizə zonalarının ərazisindən istifadə rejiminə riayət olunmasına dövlət nəzarətinin həyata keçirilməsi;

— su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində lisenzi- yalaşdırmanın həyata keçirilməsi;

— su obyektlərinin bərpası və mühafizəsi haqqında hövzə sazişlərinin hazırlanması, bağlanması və həyata keçirilməsi;

— su obyektlərindən səmərəli istifadə edilməsinə, onların bərpasına və mühafizəsinə yönəlmiş digər funksiyaların həyata keçirilməsi.

Su obyektlərinin istifadəsi və mühafizəsi üzərində dövlət nəzarətini həyata keçirən orqanlar aşağıdakı səlahiyyətlərə malikdirlər: su obyektlərinin istifadəsi və mühafizəsi qaydalarının pozulması nəticəsində dövlətə vurulan zərərin ödənilməsi məqsədi ilə tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə, təşkilat və digər hüquqi şəxslərə, Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə qarşı iddia qaldırmaq; su obyektlərinin istifadəsi və mühafizəsi qaydalarının pozulmasında müqəssir şəxsləri cinayət məsuliyyətinə cəlb etmək məqsədi ilə müvafiq sənədləri hüquq mühafizə orqanlarına göndərmək; suların istifadəsinə

və mühafizəsinə dair müəyyən edilmiş qaydalar pozulduqda həmin işləri və bu mənbələrin suyundan istifadə olunmasını dayandırmaq hüququna. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi qanunvericilikdə nəzərdə tutulmuş hallarda su obyektlərinin mühafizəsi qaydalarının pozulmasında təqsirkar olan şəxsləri inzibati məsuliyyətə cəlb etmək hüququna malikdir.

## MÖVZU 11. Meşədən istifadə hüququ və onun növləri.

Meşə bioloji cəhətdən qarşılıqlı əlaqəli və öz inkişafında bir-birinə təsir göstərən torpağın, suyun, ağac, kol və ot bitkilərinin, heyvanların, mikroorqanizmlərin və ətraf mühitin digər tərkib hissələrinin vəhdətidir1. Meşə ekoloji, iqtisadi və mədəni-sağlamlaşdırıcı funksiyalarını yerinə yetirir. Meşə təsərrüfat sərvətləri mənbəyi olmaqla bərabər, mühüm ekoloji-estetik funksiyaları yerinə yetirir. Meşə bitki örtüyünün əsas növlərindən biri, heyvanların əsas məskunlaşma mühitidir. Çayların hidroloji rejiminin təmin edilməsində, torpağın eroziyasının qarşısının alınmasında meşə mühüm rol oynayır. Meşə, həmçinin iqlimin tənzimlənməsinə, torpağın, suyun mühafizəsinə mühüm təsir göstərir. Buna görə də meşələrin mühafizəsi, onların məhvinə qarşı mübarizə böyük aktuallıq kəsb edir.

Meşə fondu sahələrindən istifadə hüququ meşələrin çoxfunksiyalı mahiyyəti nəzərə alınmaqla həyata keçirilir (müxtəlif şəxslər tərəfindən və müxtəlif məqsədlər üçün eyni vaxtda istifadə).

Meşədən istifadə hüququ institutu meşələr üzərində mülkiyyət hüququndan törəmə olub, meşə sərvətlərinin səmərəli istismarı, habelə onların mühafizəsi və bərpası vəzifəsinin uğurla yerinə yetirilməsinə xidmət etməlidir. Meşədən istifadəyə qoyulan əsas tələblər aşağıdakılardır:

-meşələrdən fasiləsiz və səmərəli istifadə; əhalinin sağlamlığının qorunması, ətraf mühitin yaxşılaşdırılması və iqtisadiyyatın inkişafı üçün meşələrin mühityaradıcı, suyu mühafizə, qoruyucu və digər funksiyalarının saxlanılması və gücləndirilməsi;

-meşədən istifadə qaydalarının meşələrin əhəmiyyətindən, yerinə yetirdikləri funksiyalarından, yerləşməsindən, təbii və iqtisadi şəraitdən asılı olaraq müəyyənləşdirilməsi; meşələrin bərpası üçün şəraitin yaradılması; meşədən istifadənin ödənişli olması;

-meşədən istifadənin elmi cəhətdən əsaslandırılmış normalarına riayət edilməsi.

Meşə fondundan istifadə növləri aşağıdakılardır:

-oduncaq tədarükü;

-ikinci dərəcəli meşə ehtiyatları tədarükü (kötük, lif, qabıq və başqaları);

-meşədən əlavə istifadə (ot çalını, pətəklərin və arıxanaların yerləşdirilməsi, yabanı meyvə, göbələk, giləmeyvə, qərzəkli və

-digər məhsullar, palıd qozası, dərman bitkiləri, texniki xammal, mamır, meşə döşənəyi, tökülmüş yarpaq, qarğı, qamış, cil və digərlərinin tədarükü və yığılması, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilmiş siyahı ilə müəyyənləşdirilən başqa əlavə istifadə);

-elmi tədqiqat məqsədləri üçün;

-mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri üçün;

-ovçuluq təsərrüfatı.

Meşə fondu sahələrindən istifadə hüququnun əsasları aşağıdakılardır:

-müqavilələr;

-məhkəmə qərarları;

-Meşə Məcəlləsi ilə yol verilən digər əsaslar.

Meşə fondu sahələrindən istifadə hüququ Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin qərarı ilə aşağıdakı hallarda məhdudlaşdırıla və ya dayandırıla bilər:

-meşə istifadəçisi tərəfindən Azərbaycan Respublikası meşə qanunvericiliyinin tələbləri pozulduqda;

-meşə istifadəçisi tərəfindən icarə müqaviləsinin, meşəqırma biletinin, orderin, meşə biletinin şərtlərinə əməl edilmədikdə.

Meşə fondu sahələrindən istifadə hüququnun məhdudlaşdırılması və ya dayandırılması meşə istifadəçisini Azərbaycan Respublikasının meşə qanunvericiliyini pozduğuna görə intizam, inzibati, mülki və cinayət məsuliyyətindən azad etmir.

Meşə istifadəçisi meşə fondu sahələrindən istifadə hüququndan imtina etdikdə, istifadə hüququnun müddəti başa çatdıqda, meşə istifadəçisi olan hüquqi və fiziki şəxsin fəaliyyəti dayandıqda, Meşə Məcəlləsi və Azərbaycan Respublikasının başqa qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda onun meşə fondu sahələrindən istifadə hüququna xitam verilir.

Meşə fondu sahələrindən istifadə hüququna məcburi xitam verilməsi yalnız aşağıdakı hallarda həyata keçirilir:

-meşə istifadəçisi tərəfindən Azərbaycan Respublikasının meşə qanunvericiliyi pozulduqda:

-fövqəladə vəziyyət törədən qəza, təbii fəlakət və bu kimi başqa hadisələr baş verdikdə;

-meşə istifadəçisi tərəfindən meşə fondu sahələrindən istifadə üçün haqq müəyyən olunmuş müddətdə ödənilmədikdə;

-meşə istifadəçisi tərəfindən meşə fondu sahələrindən (torpaqlarından) istifadə qaydaları və ya icarə müqaviləsində, meşə- qırma biletində, orderdə, meşə biletində nəzərdə tutulmuş şərtlər pozulduqda:

-meşə istifadəçisi tərəfindən yanğın təhlükəsizliyi qaydalarına əməl edilmədikdə;

-meşə fondu sahələri dövlət ehtiyacları üçün geri alındıqda.

Meşə Məcəlləsində və Azərbaycan Respublikasının digər qanunvericiliyində nəzərdə tutulmuş hallardan başqa meşə fondundan və meşə sərvətlərindən istifadənin bütün növləri ödənişlidir. Meşə təsərrüfatının ümumi gəliri meşə gəlirlərindən və meşə təsərrüfatının fəaliyyəti nəticəsində əldə edilən gəlirdən ibarətdir. Meşə gəliri köküstə oduncaq buraxılışı və meşədən digər istifadələrə görə, habelə meşə fonduna vurulan zərər və itkiyə görə ödəmələrdən ibarətdir. Ödəmələr meşə məzənnələri əsasında hesablanır.

Meşə təsərrüfatının fəaliyyəti nəticəsində əldə edilən gəlirlərə meşə təsərrüfatı istehsalından, meşə sənayesi və qeyri-sənaye meşə istehsalından daxil olan vəsaitlər aid edilir.

Meşələrin bərpasının, mühafizəsinin və qorunmasının, meşə təsərrüfatı istehsalının digər tədbirlərinin, habelə meşə təsərrüfatının inkişafı proqramlarının maliyyələşdirilməsini təmin etmək məqsədilə meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu yaradılır.

Fondun maliyyə mənbələri meşə gəlirlərindən, meşə təsərrüfatına ictimai yardımlardan və digər vəsaitlərdən ibarətdir. Meşə təsərrüfatı istehsalı meşələrin qorunub saxlanması və təkrar istehsalı fondu, eləcə də büdcə vəsaiti hesabına maliyyələşdirilir. Sənaye və qeyri-sənaye istehsalı özünümaliyyələşdirmə (təsərrüfat hesabı) prinsipi əsasında həyata keçirilir.

## Meşələrin hüquqi mühafizəsi. Meşə qanunvericiliyinin pozulmasına görə məsuliyyət.

Meşədən istifadə və onun mühafizəsinin ekoloji-hüquqi rejiminin mühüm ünsürlərindən biri meşələrin hüquqi mühafizəsinin həyata keçirilməsidir. Meşələrin hüquqi mühafizəsi meşələrin yanğından, qanunsuz qırılmadan, meşədən istifadənin müəyyən edilmiş qaydalarının pozulması hallarından və meşəyə zərər vuran digər hərəkətlərdən, zərərvericilərdən və xəstəliklərdən mühafizə edilməsini nəzərdə tutur.

Meşələrin mühafizəsi və qorunması onların bioloji və digər xüsusiyyətlərini nəzərə almaqla həyata keçirilir, meşə fondundan səmərəli istifadə, meşələ.ri məhv olmaqdan, zədələnmədən, zəifləmədən, çirklənmədən və digər mənfi təsirlərdən mühafizə sahəsində təşkilati, hüquqi və başqa tədbirlər sistemindən ibarətdir.

Meşələrin mühafizəsi və qorunması meşə təsərrüfatı müəssisələri tərəfindən yerüstü vasitələrdən və müəyyən edilmiş qaydada aviasiyadan istifadə etməklə həyata keçirilir.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və meşə təsərrüfatı müəssisələri meşələrin mühafizəsi və qorunması, zərərvericilər, xəstəliklər və yanğınlarla mübarizə tədbirləri həyata keçirirlər.

Fövqəladə Hallar Nazirliyi meşə yanğınının əhatə etdiyi ərazinin böyüklüyündən,

yanğının növündən, meteoroloji və sair amillərdən asılı olaraq onun tez müddətdə söndürülməsi üçün operativ tədbirləri müəyyənləşdirir. Operativ tədbirləri hazırlamaq üçün aşağıdakı məsələlər dəqiqləşdirilir:

-yanğının söndürülməsinə cəlb ediləcək fiziki və hüquqi şəxslərin sayı və onlara radio, telefon və çaparlar vasitəsilə xəbərdarlıq olunmasının təşkili;

-yanğın baş vermiş əraziyə göndərilmək üçün bölgələrdə yan- ğınsöndürücü alət və vasitələrin miqdarı və vəziyyəti; təbii və süni su ehtiyatlarının mövcudluğu; rabitə vasitələri ilə təminat;

-yanğın yerlərində nəqliyyat yolları, relyef və torpaq örtüyü barədə məlumat;

-təşkili;

-hüquqi və fiziki şəxslərin yanğın yerinə çatdırılması üçün nəqliyyat vasitələrinin

-tibbi və iaşə xidmətinin təşkili.

Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi meşə fondunun vəziyyəti üzərində müntəzəm müşahidə aparmaq, zərərvericilərin və xəstəliklərin mənbələrini aşkara çıxarmaq, həmin yerlərdə profilaktik tədbirlər aparmaq, bu halların yayılmasının qarşısını almaq və onları aradan qaldırmaq yolu ilə təmin edilir.

Meşə fondunun zərərvericilərdən və xəstəliklərdən mühafizəsi aşağıdakı tədbirlərdən ibarətdir:

-cari, ekspedisiya, aviavizual və sair meşəpatologiya müşahidələri;

-zərərvericilərin və xəstəliklərin əmələ gəlməsinin ümumi, ilkin yoxlanışı və onun dəqiq müşahidəsinin aparılması;

-zərərvericilər və xəstəliklər ilə aviasiya və yerüstü vasitələrlə mübarizə tədbirlərinin hazırlanması;

-meşə xəstəliklərinə qarşı profilaktik tədbirlərin, zərərvericilərin və xəstəliklərin mənbələrinin ləğv edilməsi işlərinin təşkili; bu tədbirlərin yerinə yetirilməsi üzərində nəzarət.

Meşə fondunun mühafizə olunması hər bir vətəndaşın, fiziki və hüquqi şəxslərin borcudur. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq fiziki və hüquqi şəxslər, ictimai birliklər meşələrin səmərəli istifadəsi, qorunması və bərpasının təmin olunmasında iştirak edə bilərlər.

Meşə qanunvericiliyinin pozulmasına görə məsuliyyətin dörd növü fərqləndirilir:

— meşələr üzərində dövlət mülkiyyəti hüququnun pozulmasına görə məsuliyyət. Belə pozuntularda təqsirli olan vətəndaşlar və hüquqi şəxslər Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə intizam, inzibati, mülki və cinayət məsuliyyəti daşıyırlar;

— meşə fondundan istifadə qaydasının pozulmasına görə məsuliyyət. Belə məsuliyyət meşələrin qorunub saxlanması və təkrar istehsalı fondunun istifadə

qaydalarının, meşə fondunun mühafizəsi, qorunması və meşələrin bərpası qaydalarının, dövlət meşə kadastrının aparılması qaydasının, kötüstə buraxılan oduncaq və ikinci dərəcəli meşə ehtiyatlarının məcburi sertifikatlaşdırıl- masının təşkili və aparılması qaydasının, meşə təsərrüfatı sahəsində dövlət statistik hesabatının aparılması qaydalarının, meşə təsərrüfatı sahəsində dövlət statistik hesabatının aparılması qaydalarının, meşələrin qoruyucu kateqoriyalara aid edilməsi, meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi qaydalarının, habelə meşəqırma qaydalarının pozulmasına görə yaranır;

— meşə təsərrüfatının aparılması qaydalarının pozulmasına görə məsuliyyət. Belə məsuliyyət meşə fondu sahələrinin bir ilə qədər qısamüddətli istifadəyə verilməsi qaydasının, meşələrin monitorinqinin həyata keçirilməsi qaydasının, meşə quruluşu işlərinin aparılması qaydasının, meşə fondu haqqında məlumatın fiziki və hüquqi şəxslərə verilməsi qaydasının və digər qaydaların pozulmasına görə yaranır;

— meşəyə zərər vuran və ya zərər vurulması təhlükəsi doğuran hüquq pozuntularına görə məsuliyyət. Belə pozuntulara görə inzibati, habelə cinayət məsuliyyəti yaranır.

Meşələrin istifadəsi, mühafizəsi, qorunması və bərpası sahəsində mübahisələr məhkəmə qaydasında həll edilir.

Meşə qanunvericiliyinin pozulmasında təqsiri olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun intizam, inzibati, mülki və cinayət məsuliyyəti daşıyırlar.

## MÖVZU 12. Heyvanlar aləmindən istifadə hüququ və onun növləri.

Heyvanlar aləmi ölkəmizin milli sərvəti, təbii mühitin ayrılmaz elementidir. O həm də böyük iqtisadi əhəmiyyətə malikdir və yeyinti məhsullarının, sənaye xammalının və s. maddi sərvətlərin mənbəyi kimi çıxış edir. Heyvanların ayrı-ayrı növləri böyük mədəni, elmi, estetik, tərbiyəvi və müalicəvi əhəmiyyətə malikdir.

Heyvanlar aləmindən istifadə və onların mühafizəsi ilə əlaqədar münasibətlər

«Heyvanlar aləmi haqqında» Azərbaycan Respublikasının 4 iyun 1999-cu il tarixli Qanunu1, Azərbaycan Respublikasının qoşulduğu çoxsaylı beynəlxalq müqavilələrlə, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə təsdiq edilmiş ayrı-ayrı qaydalarla tənzimlənir.

Heyvanlar aləmi obyektlərindən istifadə onların hüquqi rejiminə, sayına, təsərrüfat, elmi və estetik əhəmiyyətinə müvafiq surətdə tənzimlənir. Belə istifadə qanunvericiliklə müəyyən edilmiş hallarda ödənişli əsaslarla həyata keçirilir. Hüquqi və fiziki şəxslər heyvanlar aləmindən istifadəni, bir qayda olaraq, xüsusi icazə əsasında həyata keçirirlər.

Heyvanlar aləmi obyektlərindən istifadə hüququnun subyektləri qismində hüquqi

şəxslər, Azərbaycan Respublikası vətəndaşları, əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər çıxış edə bilərlər.

Heyvanlar aləmindən istifadə xüsusi icazə əsasında verilir. Heyvanlar aləmindən istifadə mülkiyyət, ümumi və xüsusi istifadə hüquqları əsasında həyata keçirilir. Heyvanlar aləmindən ümumi istifadə zamanı vəhşi heyvanların məhv edilməsi, onların yaşayış mühitinə və nəsilartırma yerlərinə ziyan vurulması qadağan edilir. Bu tələblər su obyektlərinin, torpaq və meşə mülkiyyətçilərinin və istifadəçilərinin ərazilərində məskunlaşan heyvanlar aləminin obyektlərinə də şamil edilir.

«Xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına daxil edilən heyvanların mühafizəsi və istifadəsi Qaydalara əsasən, heyvanlar aləmindən istifadə mülkiyyət, ümumi və xüsusi istifadə hüquqları əsasında həyata keçirilir.

Heyvanlar aləmindən ümumi istifadə, idman və həvəskar balıq ovu istisna olmaqla, vəhşi heyvanları təbii mühitdən ayırmadan insanların həyati vacib tələbatlarını (estetik, sağlamlıq, istirahət (rekreasiya) və s.) təmin etmək məqsədi ilə ödənişsiz həyata keçirilir.

Heyvanlar aləmindən xüsusi istifadəyə vəhşi heyvanları təbii mühitdən ayırmaqla (idman və həvəskar balıq ovu istisna olmaqla), həyata keçirilən bütün istifadə növləri aid edilir.

Təbii sərbəstlik şəraitində olan heyvanlar aləmindən ümumi istifadəyə aşağıdakılar aid edilir;

a) heyvanlar aləmi obyektlərindən elmi tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün (müşahidə, nişanlama, şəkilçəkmə və s.) istifadə edilməsi;

b) vəhşi heyvanların həyat fəaliyyətinin faydalı xüsusiyyətlərindən (mühitin təbii sanitarları olmaq, bitkiləri tozlamaq və s.) istifadə edilməsi;

c) vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi;

ç) idman və həvəskar balıq ovu.

Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi müvafiq Qaydalarla tənzimlənir.

Vəhşi heyvanlardan ümumi istifadə zamanı aşağıdakılar qadağandır:

a) vəhşi heyvanların məhv edilməsi, onların yaşayış mühitinə, miqrasiya yollarına və nəsilartırma yerlərinə ziyan vurulması;

b) xüsusi icazə olmadan ümumi istifadəni dövlət qoruqlarında və digər xüsusi rejimli ərazilərdə aparmaq;

c) qış yuxusuna gedən dövrdə vəhşi heyvanlara yaxınlaşmaq (elmi tədqiqat məqsədlərindən başqa), onları narahat etmək (səs və işıq salmaq, yaşayış yerlərini dağıtmaq);

ç) cütləşmə və çoxalma dövrlərində (xüsusən koloniyalarda) onların çoxalma yerlərinə yaxınlaşmaq, yumurtaları, lələkləri və heyvanların həyat fəaliyyətinin digər məhsullarını yığmaq (elmi tədqiqat məqsədlərindən başqa), yuvaları dağıtmaq və gecə vaxtı işıq salmaq.

Sərbəst və yarımsərbəst şəraitində olan heyvanlar aləmindən xüsusi istifadəyə aşağıdakılar aid edilir:

a) ovçuluq;

b) balıqçılıq (idman və həvəskar balıq ovu istisna olmaqla);

c) vəhşi heyvanların qeyri-sərbəst və yarımsərbəst şəraitdə saxlanılması, çoxaldılması, kommersiya və digər məqsədlər üçün tutulması;

ç) heyvanlar aləmi obyektlərinin elmi tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün tutulması (əldə edilməsi).

Heyvanlar aləmindən xüsusi istifadə ödənişlidir və qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

Vəhşi heyvanların həyat fəaliyyəti məhsullarının yığılmasına (əldə edilməsinə) razılıq almaq üçün fiziki və hüquqi şəxslər tərəfindən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və ya onun yerli təşkilatlarına müvafiq ərizə (məktub) təqdim edilməlidir.

Ərizədə aşağıdakılar əks olunmalıdır:

a) heyvanın .növü və həyat fəaliyyəti məhsulu;

b) heyvanların həyat fəaliyyəti məhsulunun əldə edilməsi üsulu;

c) ərazi və müddəti;

ç) heyvanların həyat fəaliyyəti məhsulundan istifadənin məqsədi;

d) heyvanların həyat fəaliyyəti məhsulunun yığılmasını (əldə edilməsini) aparan şəxs barədə məlumat.

Məlumatda aşağıdakılar əks olunmalıdır:

a) hüquqi şəxslər üçün hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, hüquqi

ünvanı;

c) fiziki şəxslər üçün adı, atasının adı, soyadı və ünvanı.

Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində ərizə (məktub) qeydə alınmaqla qəbul edilir.

Azərbaycan Respublikasının «Qırmızı Kitabı»na daxil edilmiş və daxil edilməmiş, lakin kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna növlərinin əldə edilməsinə icazə verilmir. Ərizəyə (məktuba) qeydə alınma tarixindən başlayaraq 15 gün müddətində baxılır və müvafiq cavab verilir.

Heyvanlar aləmindən istifadənin aşağıdakı növləri vardır: ovçuluq; balıq ehtiyatlarından istifadə; heyvanlar aləmi obyektlərindən elmi tədqiqat, estetik, mədəni-maarif, təlim-tərbiyə, digər məqsədlər üçün istifadə; vəhşi heyvanların yarımsərbəst və qey- ri-sərbəst şəraitdə saxlanması, yetişdirilməsi və artırılması məqsədi ilə tutulması; heyvanlar aləmi obyektlərinin faydalı funksiyalarından istifadə edilməsi (bitkilərin tozlanması, ətraf mühitin təbii sanitarı və s.); heyvanlar aləmindən onların həyat fəaliyyətini təşkil edən məhsulların əldə edilməsi məqsədi ilə istifadə olunması.

**Heyvanlar aleminin hüquqi mühafizəsi.**
**Heyvanlar aləminin istifadəsi və mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət.**

Heyvanlar aləminin mühafizəsi heyvanlar aləmi obyektlərinin qorunub saxlanmasına, törəyib artmasına və səmərəli istifadəsinə yönəldilmiş hüquqi, iqtisadi, təşkilati və digər tədbirlər sisteminin məcmusudur. Heyvanlar aləminin mühafizəsini öz səlahiyyətləri daxilində heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində idarəetmə sisteminə daxil olan orqanlar həyata keçirirlər.

Heyvanlar aləminin obyektlərindən istifadənin ayrı-ayrı növlərinin həyata keçirilməsi və heyvanların təbii mühitdən götürülməsi, onların qorunub saxlanılması və törəyib artması məqsədi ilə müəyyən ərazidə və ya müəyyən müddətlər üçün məhdudlaşdırıla və ya qadağan edilə bilər.

Heyvanlar aləminin hüquqi mühafizəsi özündə kompleks tədbirlərin həyata keçirilməsini və digər şərtləri ehtiva edir. Heyvanlar aləminin hüquqi mühafizəsinin tələbinə görə fiziki və hüquqi şəxslər heyvanlar aləminin vəziyyətinə zərərli təsir göstərən və göstərə bilən hər hansı fəaliyyəti həyata keçirərkən heyvanların yaşayış mühitinin, çoxalma şəraitinin və miqrasiya yollarının mühafizəsini təmin etməlidirlər.

Azərbaycan Respublikasının ərazisində təbii şəraitdə yaşayan, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan növləri xüsusi mühafizə edilir və Azərbaycan Respublikasının Qırmızı kitabına daxil edilir. Bu heyvan növlərinin mühafizəsi, törəyib artması və istifadəsi qaydaları və tələbləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş, Azərbaycan Respublikasının Qırmızı kitabı haqqında Əsasnamə ilə müəyyən edilir.

Xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına aşağıdakı şərtlərə uyğun vəhşi heyvanlar aiddir:

a) xüsusi mühafizə tədbirləri tələb edən nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olanlar;

b) müxtəlif təbii-iqlim zonalarının faunasını qoruyub saxlamaq üçün vacib olan endemik, nadir və özünüqoruma qabiliyyətini itirmək təhlükəsi qarşısında qalan real və potensial dəyəri müəyyən edilmiş, hazırda ehtiyatının tükənməsinin qarşısının alınması məqsədi ilə zəruri və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb edən beynəlxalq saziş və konvensiyaların təsir dairəsinə düşən Azərbaycan Respublikasının ərazisində təbii şəraitdə yaşayan, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan və Azərbaycan Respublikasının «Qırmızı Kitab»ına daxil edilməmiş vəhşi heyvan növləri.

Təbii sərbəstlik şəraitində olan heyvanlar aləmindən istifadə sahəsinə aşağıdakılar aid edilir:

a) vəhşi heyvanların qeyri-sərbəst və ya yarımsərbəst şəraitdə saxlanılması, çoxaldılması məqsədləri üçün tutulması;

b) heyvanlar aləmi obyektlərindən elmi-tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün istifadə olunması.

Heyvanlar aləmindən istifadə qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir.

Bu tələblər su obyektlərinin, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin ərazilərində məskunlaşan heyvanlar aləminin obyektlərinə də şamil edilir.

Qanunvericilik, həmçinin heyvanlar aləmi obyektlərinin istifadəsinin və mühafizəsinin ənənəvi metodlarını təsbit edir. Bu metodlar sırasında iqtisadi tənzimləmə xüsusi yer tutur. O, heyvanlar aləmi obyektlərinin istifadəsi və mühafizəsi sahəsində iqtisadi münasibətlərin qurulmasını və tənzimlənməsini nəzərdə tutur. Heyvanlar aləminin mühafizəsi və istifadəsinin iqtisadi tənzimlənməsi aşağıdakı prinsiplərə əsaslanır: heyvanlar aləmindən istifadəyə görə ödəmələr və qeyri-qanuni heyvan ovuna cərimələr; heyvanlar aləmi obyektlərinin mühafizəsinin, artırılmasının, elmi təminatının, habelə onların yaşayış mühitinin qorunub saxlanılmasının və yaxşılaşdırılmasının dövlət büdcəsindən və büdcədənkənar ödəmələr hesabına maliyyələşdirilməsi; heyvanlar aləminə və onların yaşayış mühitinə vurulan zərərin kompensasiyası; heyvanlar aləmi obyektlərinin mühafizəsinin, səmərəli istifadəsinin və artırılmasının stimullaşdırılması.

Heyvanlar aləmi obyektlərindən istifadəyə görə ödənişlər sistemi heyvanlar aləmindən istifadəyə görə haqqı, heyvanlar aləmindən limitdənkənar və səmərəsiz istifadəyə görə cərimələri, heyvanlar aləmi haqqında qanunvericiliyin pozulmasına görə cərimələri ehtiva edir.

Heyvanlar aləmi obyektlərinin istifadəsi və mühafizəsi sahəsində qanunvericiliyin pozulmasına görə ciddi məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur. Belə hüquq pozuntularının törədilməsində təqsirli olan şəxslər inzibati, mülki və cinayət məsuliyyətinə cəlb olunurlar.

Heyvanlar aləmi obyektlərinə və onların məskunlaşma mühitinə ziyan vuran hüquqi şəxslər və vətəndaşlar həmin ziyanın əvəzini ödəməyə borcludur.

Heyvanlar aləmi haqqında qanunvericiliyin pozulmasında təqsiri olan şəxslər aşağıdakı hallarda Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar:

-heyvanlar aləminin obyektlərini təbii mühitdən icazəsiz götürdükdə;

-heyvanlar aləminin obyektlərindən özbaşına xüsusi istifadə etdikdə;

-heyvanlar aləminin obyektlərindən istifadənin limitlərini artırdıqda və başqa tələblərini pozduqda;

-dövlət ekoloji ekspertizasının tələblərini yerinə yetirmədikdə; ov qaydalarını kobud şəkildə pozduqda (lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan edilmiş müddətlərdə, qadağan edilmiş alətlərlə və ya üsullarla ov etdikdə), habelə digər ov qaydalarını müntəzəm pozduqda;

-Azərbaycan Respublikasının Qırmızı kitabına daxil edilmiş və ya xüsusi mühafizə olunan heyvan növlərinin siyahısında olan heyvanların mühafizəsi üzrə tələbləri yerinə yetirmədikdə;

Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində hüquq pozuntularına görə vəzifəli şəxslərin və vətəndaşların inzibati məsuliyyəti Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə nəzərdə tutulmuşdur. Heyvanlar aləmindən qanunsuz istifadənin bir sıra növlərinə görə cinayət məsuliyyəti nəzərdə tutulur.

Heyvanlar aləminin mühafizəsi qaydalarının pozulmasına və heyvanlar aləmindən qanunsuz istifadəyə görə cinayət məsuliyyəti və inzibati məsuliyyət müəyyən olunmuşdur.

Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

## MÖVZU 13. Atmosfer havası ekoloji münasibətlərin obyekti kimi.

Atmosfer havası ətraf mühitin mühüm komponenti, insanın, bitkilərin və heyvanların məskunlaşma mühitinin ayrılmaz hissəsidir. Qanunvericilik atmosfer havasının mühafizəsinin hüquqi əsaslarını müəyyən edir. Atmosfer havasının mühafizəsi üzrə fəaliyyət həyata keçirilərkən yaranan əmlak münasibətləri mülki qanunvericiliklə tənzimlənir.

Atmosfer zərərli kosmik təsirlərdən müdafiə vasitəsi kimi çıxış edir, iqlimi müəyyən edir, insanların sağlamlığına həlledici təsir göstərir. Atmosfer havası, həmçinin geoloji,

ekoloji, istiliyi tənzimləyici, qoruyucu, enerji təminedici, təsərrüfat və digər funksiyaları həyata keçirir. Havanın çirklənməsi insanların sağlamlığına, ətraf mühitə və təsərrüfata mənfi təsir göstərir.

Atmosferin antropogen çirklənməsinin əsas mənbəyini sənaye və nəqliyyat təşkil edir. Alimlərin fikrincə, bu gün havanın çirklənməsi üç amillə şərtlənir:

1. Ozon təbəqəsinin tükənməsi. Bu, atmosferin yerin səthini radiasiyanın zərərli təsirindən qorumaq qabiliyyətini zəiflədir.

2. Atmosferdə oksigen tutumunun azalması. Belə vəziyyət atmosferin çirkləndirici qatışıqlardan qorunmaq qabiliyyətini zəiflədir.

3. İqlimin qlobal istiləşməsi. Günəş radiasiyasının atmosferin aşağı qatlarında yerləşən hissəsinin artmasına səbəb olur. Bu isə temperaturun müəyyən hüdudlar daxilində saxlanması qabiliyyətini zəiflədir və qlobal iqlim rejiminin pozulmasına gətirib çıxarır.

Yer səthində həyat havadan asılıdır. Son vaxtlara qədər təbiət özü yer səthinin temperaturunu saxlamışdır. Lakin antropogen fəaliyyət bu vəziyyəti dəyişmişdir.

1992-ci ildə Rio-de-Janeyroda keçirilmiş BMT Konfransı iqlimin dəyişməsi ilə bağlı hərəkətlərə dair Konvensiya qəbul etmişdir. Atmosfer havası da təbiət kimi dövlətin mühafizəsi altındadır. Belə mühafizə müxtəlif istiqamətlər üzrə həyata keçirilir.

Ozon təbəqəsinin əhəmiyyəti. Bəşəriyyət özünün inkişafı prosesində ətraf mühitə dəyişdirici təsir göstərir. Keçən əsrin ortalarından etibarən insan fəaliyyətinin ətraf mühitə qlobal təsiri məsələləri beynəlxalq təşkilatlar tərəfindən nəzərdən keçirilməyə başlanmış, belə fəaliyyətin məhdudlaşdırılması isə beynəlxalq razılaşmaların predmeti olmuşdur. Bu baxımdan ozon təbəqəsinin dağılması ən mühüm problemlərdən birinə çevrilmişdir. Bu proses yer üzündə ekosistemlərin və biosferin normal fəaliyyətinin pozulması təhlükəsi doğurur.

Sənayenin inkişafı atmosfer havasına çirkləndirici tullantıların külli miqdarda artımına səbəb olmuşdur. Bu isə planetin özünəməxsus «örtüyü» olan ozon təbəqəsinin vəziyyətinə olduqca mənfi təsir göstərir. Ozon təbəqəsinin dağılması bir sıra obyektiv və subyektiv səbəblərlə şərtlənir.

İnsan Ozon təbəqəsinə müxtəlif üsullarla təsir göstərir. Belə təsir növləri insanın təsərrüfat fəaliyyəti ilə bağlıdır. Nüvə sınaqları ozon təbəqəsi üçün xüsusilə böyük təhlükə doğurur. Bütün bu amillərin təsiri altında ozon təbəqəsi nazilir və bu təbəqədə deşiklərin yaranması ehtimalı artır.

Bu təhlükəyə qarşı mübarizə sahəsində Ozon təbəqəsinin mühafizəsi üzrə səlahiyyətli nümayəndələrin 1985-ci il Vyana konfransı mühüm hadisə olmuşdur. Həmin konfransda «Ozon təbəqəsinin mühafizəsi üzrə» Vyana Konvensiyası qəbul olunmuşdur.

Vyanada yaradılmış ekspert qrupu ozon təbəqəsinin vəziyyəti ilə bağlı rəyini 1987-ci il Monreal konfransına təqdim etmişdir. Monreal konfransının qəbul etdiyi Protokol ilk dəfə dünya birliyi qarşısında ozon təbəqəsinin mühafizəsi ilə bağlı sərt tələblər qoymuşdur. 1986-cı il yanvarın 1-dən qüvvəyə minmiş Protokolu dünyanın 100- dən artıq ölkəsi imzalamışdır.

Ozon təbəqəsinin qorunması bütövlükdə atmosferin mühafizəsi ilə ayrılmaz surətdə bağlıdır.

Yerin Ozon təbəqəsinin ekoloji cəhətdən təhlükəli dəyişikliklərindən ətraf mühitin mühafizəsi aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

— təsərrüfat fəaliyyətinin və digər proseslərin təsiri altında iqlimin vəziyyətinin, Ozon təbəqəsinin dəyişməsinin müşahidəsinin, uçotunun və ona nəzarətin təşkili;

— iqlimin, Ozon təbəqəsinin vəziyyətinə təsir göstərən zərərli maddə tullantılarının yol verilən son həddinin normativlərinin müəyyən edilməsi və onlara riayət olunması;

— Ozon təbəqəsini dağıdan kimyəvi maddələrin istehsalının və məişətdə onlardan istifadənin tənzimlənməsi;

— göstərilən tələblərin pozulmasına görə məsuliyyət tədbirlərinin tətbiqi. Beynəlxalq razılaşmalara müvafiq surətdə idarələr, müəssisələr, təşkilatlar

Ozon təbəqəsinə zərərli təsir göstərən kimyəvi maddələrin istehsalını və onlardan istifadəni azaltmağa və sonradan tamamilə dayandırmağa borcludur. Həmin tələblərə riayət olunmasına nəzarət ətraf mühitin mühafizəsi sahəsində xüsusi səlahiyyətli dövlət orqanları tərəfindən həyata keçirilir. Müvafiq qaydaların pozulması müəssisələrin, idarələrin, təşkilatların fəaliyyətinin dayandırılmasına, yaxud xitam olunmasına əsas yaradır.

Təmiz atmosfer havası insan sağlamlığının möhkəmləndirilməsi üçün böyük əhəmiyyətə malikdir. Havanın sabitliyinin pozulması insanların əhvali-ruhiyyəsinə və sağlamlığına mənfi təsir göstərir.

Ətraf mühitə təsir göstərən müəssisələr və təşkilatlar çirkləndirici maddələrin atmosferə atılması üçün səlahiyyətli dövlət orqanlarından icazə almalıdır. Bu məqsədlə onlar tullantı mənbələrinin inventarlaşdırılmasını həyata keçirməli, çirklənmənin həcmini müəyyən etməli və bir sıra digər tədbirləri həyata keçirməlidirlər. Atmosfer havasına müəyyən edilmiş normativdən artıq çirkləndirici maddələrin atılmasına görə onlar əlavə haqq ödəməlidirlər.

## Atmosfer havasının mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət.

Qanunvericilik ətraf mühitin çirkləndirici tullantılarla çirkləndirilməsi halında fiziki və hüquqi şəxslərin cərimə olunması haqqında müddəaları təsbit edir.

Qanunvericilik atmosfer havasının mühafizəsi qaydalarının pozulmasına görə məsuliyyəti müəyyən edir. Vurulmuş ziyanın əvəzinin ödənilməsi məqsədilə vəzifəli şəxslər və digər işçilər üçün maddi məsuliyyət də nəzərdə tutulmuşdur.

Atmosfer havasının mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə aşağıdakı hallarda təqsirkar hesab edilən hüquqi və fiziki şəxslər, habelə vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar:

-zərərli maddələrin atılmasının və zərərli fiziki təsirlərin normativləri və hədlərini aşdıqda;

-Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xüsusi icazəsi olmadan atmosfer havasına zərərli maddələr atdıqda;

-xüsusi icazədə göstərilmiş normalardan artıq zərərli maddələri atdıqda və zərərli fiziki təsir etdikdə;

-atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirə nəzarət etmək məqsədilə quraşdırılmış qurğuların, avadanlığın və cihazların istismar qaydaları pozulduqda;

-atmosfer havasının mühafizəsi haqqında qanunvericiliyin tələblərinə cavab verməyən yeni və yenidən qurulmuş qurğuları və avadanlıqları istismara verdikdə;

-atmosfer havasının mühafizəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verməyən və atmosfer havasına zərərli maddələrin atılmasına nəzarət üçün texniki vasitələrlə təmin olunmasını nəzərə almayan kəşfləri, ixtiraları, səmərələşdirici təklifləri, yeni texniki sistemləri, maddələri tətbiq etdikdə, habelə bu cür texnoloji avadanlıqları idxal etdikdə;

-atmosfer havasının mühafizəsinə dövlət nəzarətini həyata keçirən orqanların göstərişlərini yerinə yetirmədikdə;

-sənaye və məişət tullantılarının toplanması, yandırılması, bitki aləmini qoruyan, onların artımını təmin edən vasitələrin, mineral gübrələrin və digər preparatların daşınması, saxlanması, tətbiqi qaydalarının pozulması nəticəsində atmosfer havası çirkləndikdə;

-müəssisə, idarə və təşkilatların yerləşdiyi yerlərdə atmosfer havasının vəziyyətinə nəzarət qaydalarına əməl etmədikdə.

Atmosfer havasının mühafizəsi sahəsində mübahisələr məhkəmələr tərəfindən və ya Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada həll edilir.

Qanunvericiliklə atmosfer havasının mühafizəsi qaydalarının pozulmasına görə cinayət məsuliyyəti və inzibati məsuliyyət müəyyən olunmuşdur.

## MÖVZU 14. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin anlayışı və ümumi xarakteristikası.

Təbii ehtiyatların istehsal sahəsinə cəlb edilməsi prosesinin sürətlənməsi, qəmiyyətin tələbatının ödənilməsi və insan fəaliyyətinin təmin edilməsi üçün təbii mühitdən istifadənin genişlənməsi ayrı-ayrı təbiət sahələrinin ilkin şəkildə saxlanması zərurətini şərtləndirir. Bu sahələr xüsusi mühafizə olunan əraziləri qismində çıxış edib ekoloji, genetik, müdafiə, sanitar-gigiyena, sağlamlıq, mədəni-maarif funksiyalarını yerinə yetirir və fəal təsərrüfat dövriyyəsindən çıxarılır.

Hazırda Azərbaycan Respublikasında xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 699329 hektar təşkil edir ki, bu da ölkə ərazisinin 8,1 faizini təşkil edir. Ümumilikdə Azərbaycan Respublikasında 7 milli park, 11 dövlət təbiət qoruğu və 21 dövlət təbiət yasaqlığı vardır.

Xüsusi mühafizə olunan təbiət əraziləri xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq, su (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanıdır.

Xüsusi mühafizə olunan təbiət obyektləri elmi, mədəni, estetik və sağlamlaşdırma dəyəri olan, nadir, nəsli kəsilmək təhlükəsi qarşısında olan, səciyyəvi, xüsusi mühafizə rejimli zooloji, bota- nik, dendroloji, hidroloji, geoloji, geomorfoloji, hidrogeoloji, meşə, landşaft və torpaq obyektləridir.

Azərbaycan Respublikasının ərazisində məqsədindən, mühafizə rejimindən və istifadə xüsusiyyətlərindən asılı olaraq xüsusi mühafizə olunan təbiət əraziləri aşağıdakı növlərə ayrılır:

— dövlət təbiət qoruqları, o cümlədən biosfer qoruqları;
— milli parklar;
— təbiət parkları;
— ekoloji parklar;
— dövlət təbiət yasaqlıqları;
— təbiət abidələri;
— zooloji parklar;
— nəbatət bağları və dendroloji parklar;

— müalicə-sağlamlaşdırma yerləri və kurortlar.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə xüsusi mühafizə olunan təbiət ərazilərinin digər növləri də nəzərdə tutula bilər.

Milli parklar, təbiət parkları, ekoloji parklar, nəbatət bağları və dendroloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlara onların kateqoriyasından asılı olmayaraq təbiəti mühafizə və elmi- tədqiqat idarələri statusu verilir. Statusu olan xüsusi mühafizə olunan təbiət ərazilərinin rəmzləri (bayraq, emblem və sair) ola bilər.

Dövlət təbiət qoruqları, o cümlədən biosfer qoruqları, milli parklar və dövlət təbiət yasaqlıqları üzrə ümumi əsasnamələr Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin müxtəlif kateqoriyaları vardır. Azərbaycan Respublikasında xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri beynəlxalq, respublika, bölgə və yerli əhəmiyyətli kateqoriyalara bölünür.

Dövlət təbiət qoruqlarının və milli parkların əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aid edilir.

Dövlət təbiət yasaqlıqları, təbiət parkları, təbiət abidələri, zooloji parklar, nəbatət bağları və dendroloji parklar, müalicə-sağ- lamlaşdırma yerləri və kurortlar respublika əhəmiyyətli və ya bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aid edilə bilər. Təbiət parkları, zooloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri kimi elan edilə bilər.

Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidenti tərəfindən beynəlxalq əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri müəyyən edilə bilər. Respublika və ya bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili, onların kateqoriyalara aid edilməsi və bir kateqoriyadan digərinə keçirilməsi elmi təşkilatların və əlaqədar təşkilatların rəyi nəzərə alınmaqla Azərbaycan Respublikasının Nazirlər Kabinetinin (dövlət təbiət qoruqlarına, o cümlədən biosfer qoruqlarına və milli parklara münasibətdə) və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (digər xüsusi mühafizə olunan təbiət ərazilərinin növlərinə münasibətdə) təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidentinin (dövlət təbiət qoruqlarına, o cümlədən biosfer qoruqları və milli parklara münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin (digər xüsusi mühafizə olunan təbiət ərazilərinin növlərinə münasibətdə) qərarı ilə həyata keçirilir.

**Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin növlərinin hüquqi rejimi.**

Səciyyəvi və nadir təbiət komplekslərini və obyektlərini təbii vəziyyətdə qoruyub saxlamaq, təbiət proseslərinin və hadisələrinin gedişini öyrənmək məqsədilə yaradılan

təbiəti mühafizə və elmi- tədqiqat idarələri statusuna malik olan ərazilərdir. Dövlət təbiət qoruqları xüsusi ekoloji, elmi və mədəni dəyərə malik olan təbiət obyektlərinin (səciyyəvi və nadir landşaftlar, nadir geoloji törəmələr, bitki və heyvan növləri və sair) yerləşdiyi ərazilərdə (torpaq və su məkanı (akvatoriya) sahələrində) yaradılır.

Dövlət təbiət qoruqlarının əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazilərə xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilir.

Dövlət təbiət qoruqları elmi təşkilatların və əlaqədar təşkilatların rəyi nəzərə alınmaqla müvafiq dövlət orqanının təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə təşkil edilir. Dövlət təbiət qoruqlarının təşkili üçün ayrılmış torpaq sahələri onların daimi istifadəsinə verilir. Dövlət təbiət qoruqlarının torpaqlarından, habelə onun hüdudlarında olan sudan, bitki və heyvanlar aləmindən təsərrüfat məqsədləri üçün istifadə edilməsi qadağandır.

Dövlət təbiət qoruqlarının vəzifələri aşağıdakılardır:

— genetik fondun, bioloji müxtəlifliyin, ekoloji sistemlərin və təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətini qoruyub saxlamaq məqsədilə təbiət ərazilərinin mühafizəsini həyata keçirmək;

— elmi tədqiqatları təşkil etmək və aparmaq, «Təbiət salnaməsi» tərtib etmək;

— ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqi çərçivəsində ekoloji monitorinqi həyata keçirmək;

— təsərrüfat obyektlərinin və digər obyektlərin yerləşdirilməsi layihələrinin və sxemlərinin dövlət ekoloji ekspertizasında iştirak etmək;

— ətraf təbii mühitin mühafizəsi sahəsində elmi kadrların və mütəxəssislərin hazırlanmasınaköməklik etmək.

Dövlət təbiət qoruqlarında xüsusi mühafizənin vacib ümumi tədbirlərindən başqa aşağıdakılar qadağan edilir;

— bina və qurğuların, ümumi istifadə üçün yolların, boru kəmərlərinin və digər kommunikasiyaların tikintisi;

— geoloji-kəşfiyyat və müxtəlif axtarış işlərinin aparılması;

— kənd təsərrüfatının, sənayenin, hidroenergetikanın, su nəqliyyatının və digər təsərrüfat ehtiyaclarının suya olan tələbatının ödənilməsi üçün yerüstü və yeraltı sulardan istifadə edilməsi;

— oduncaq tədarükü, ikinci dərəcəli meşə ehtiyatları tədarükü, meşədən əlavə istifadə və ovçuluq təsərrüfatının ehtiyacları üçün meşədən istifadə;

— bitki aləmindən təsərrüfat məqsədilə, habelə biçənək və otlaq kimi istifadə edilməsi;

— ov və balıq ovu, habelə ov və balıqçılıq obyektlərinə aid edilməyən heyvanların təsərrüfat məqsədilə istifadə edilməsi və ovlanması;

— ətraf mühitə hər hansı kimyəvi, bioloji və fiziki təsirin tətbiq edilməsi;

— kolleksiyaların toplanması, xüsusi icazə olmadan bitki və heyvanları təbii mühitdən ayırmaqla elmi tədqiqatların keçirilməsi;

— xüsusi icazə olmadan qoruqların ərazisində olmaq.

Milli parkların hüquqi rejimi. Milli parklar xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik ərazilərdir.

Milli parkların əraziləri respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazilərdə olan torpaq, su, bitki və heyvanlar aləmi onların daimi istifadəsinə verilir. Milli parkların hüdudlarına ayrı-ayrı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada digər torpaq istifadəçilərinin və mülkiyyətçilərinin torpaq sahələri daxil edilə bilər.

Milli parkların əsas vəzifələri aşağıdakılardır:

— təbiət komplekslərini, nadir və etalon təbiət ərazilərini, tarix-mədəniyyət obyektlərini qoruyub saxlamaq;

— turizm və istirahət (rekreasiya) üçün şərait yaratmaq;

— təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

— əhalini ekoloji maarifləndirmək;

— ekoloji monitorinqi həyata keçirmək;

— zədələnmiş təbiət və tarixi-mədəniyyət komplekslərini və obyektlərini bərpa etmək.

Milli parkların ərazilərində onların təbiət, tarix-mədəniyyət və digər xüsusiyyətləri nəzərə alınmaqla xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunur və aşağıdakı fəaliyyət zonaları müəyyən edilir:

— xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

— təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;

— turizm və istirahət (rekreasiya) zonaları;

— turistlərə və başqalarına xidmət göstərilən zonalar;

— milli parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

Təbiət parklarının hüquqi rejimi. Təbiət parkları xüsusi ekoloji və estetik dəyərə malik olan, təbiəti mühafizə və istirahət (rekreasiya) məqsədləri üçün ayrılmış təbiət komplekslərinin yerləşdiyi təbiəti mühafizə idarələri statuslu ərazilərdir.

Təbiət parklarının vəzifələri təbii mühiti, təbii landşaftları və rekreasiya resurslarını mühafizə etmək, istirahət üçün şərait yaratmaq, təbiəti mühafizənin effektli metodlarını hazırlamaq və tətbiq etmək, habelə rekreasiya istifadəsi şəraitində ekoloji tarazlığı

qoruyub saxlamaqdır.

Təbiət parklarının ərazisindəki torpaq sahələri onların daimi istifadəsinə verilir. Digər torpaq istifadəçilərinin və mülkiyyətçilərinin torpaqları ayrı-ayrı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada təbiət parklarının istifadəsinə verilə bilər. Təbiət parkları respublika, bölgə və yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aid edilə bilər. Yerli əhəmiyyətli təbiət parkları bütövlüklə və ya qismən, məqsədli təyinatı üzrə, qanunvericiliklə müəyyən edilmiş qaydada fiziki və hüquqi şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilə bilər.

Təbiət parklarının mühafizə işçiləri aşağıdakı hüquqlara malikdir:

-təbiət parkının ərazisində mövcud qanunvericiliyi pozanların sənədlərini yoxlamaq, nəqliyyat vasitələrini saxlamaq, qanunvericiliklə müəyyən edilmiş qaydada nəqliyyat vasitələrini və gəmiləri, hüquqpozmaya səbəb olunmuş alətləri, cihazları və əşyaları, qanunsuz əldə edilmiş məhsulları, habelə müvafiq sənədləri götürmək və qanunu pozan şəxslərdən izahat almaq;

-təbiət parkının ərazisində mövcud qanunvericiliyə və mühafizə rejiminə zidd olan fiziki və hüquqi şəxslərin fəaliyyətini dayandırmaq;

-təbiət parkının ərazisində qanunvericiliyi pozmuş, cinayət və ya inzibati xəta törətmiş şəxsləri qanunvericiliklə müəyyən edilmiş qaydada saxlamaq, onları hüquq mühafizə orqanlarının sərəncamına vermək;

-təbiət parkının ərazisində öz səlahiyyətləri daxilində inzibati xəta haqqında protokollar tərtib etmək;

-təbiət parkının ərazisində mühafizəsi və istifadəsi sahəsində pozuntu hallarını aradan qaldırmaq haqqında icrası məcburi olan göstərişlər vermək və digər tədbirlər görmək.

Təbiət parkının rejiminin pozulmasında təqsirkar olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulması nəticəsində təbiət parklarına vurulmuş zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsində və təbiətin mühafizəsi ilə bağlı digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

Zooloji parkların hüquqi rejimi. Zooloji parklar heyvanlar aləminin mühafizəsi, törəyib artması və onlardan istifadə üçün ayrılmış təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik olan xüsusi mühafizə olunan təbiət əraziləridir. Zooloji parklar respublika, bölgə və ya yerli əhəmiyyətli ola bilər. Zooloji parkların təşkili üçün torpaq sahələri qanunvericiliklə müəyyən edilmiş qaydada onların daimi istifadəsinə verilir.

Zooloji parklarda heyvanların saxlanılması və artırılması, habelə ora gələn adamlara göstərilməsi üçün — ekspozisiya, elmi tədqiqatların aparılması məqsədilə — elmi, gələn

adamlara xidmət göstərilməsi üçün — ictimai, inzibati və təsərrüfat- istehsalat zonaları ayrılır. Zooloji parklarda onların vəzifələrinin həyata keçirilməsi ilə bağlı olmayan və orada saxlanılan heyvanların məhvinə səbəb ola bilən hər hansı fəaliyyət və hərəkət qadağandır.

Müalicə-sağlamlaşdırma yerlərinin və kurortların hüquqi rejimi. Müalicə-sağlamlaşdırma yerlərinə xəstəliklərin müalicəsinin və profilaktikasının, habelə əhalinin istirahətinin təşkili üçün yararlı olan və təbii müalicəvi resurslara (mineral sular, müalicəvi palçıqlar, şor göllər, müalicəvi iqlim, çimərliklər və sair) malik olan ərazilər aid edilə bilər.

Müalicə-sağlamlaşdırma yerləri və kurortlar onların səmərəli istifadə edilməsi və təbii müalicəvi resursların və sağlamlaşdırma xassələrinin qorunub saxlanılması məqsədilə yaradılır. Müalicə- sağlamlaşdırma yerləri və kurortlar beynəlxalq, respublika, bölgə və yerli əhəmiyyətli ola bilər. Yerli əhəmiyyətli müalicə-sağlam- laşdırma yerləri və kurortlar məqsədli təyinatı üzrə fiziki və hüquqi şəxslərin idarəçiliyinə, habelə istifadəsinə və icarəsinə verilə bilər. Ərazilərin müalicə-sağlamlaşdırma yerlərinə və kurortlara aid edilməsi qaydası, mühafizəsi və onların fəaliyyəti qanunvericiliklə müəyyən edilir.

## MÖVZU 15. Beynəlxalq ekologiya hüququnun anlayışı və predmeti. Beynəlxalq ekologiya hüququnun prinsipləri.

Hazırkı dövrdə insanın yaşamaq hüququnun — ən təbii və sadə hüququnun təmin edilməsi ekoloji problemlərin beynəlxalq həlli olmadan mümkün deyildir.

Azərbaycan Respublikası Prezidentinin 2003-cü İI 18 fevral tarixli, 1152 saylı Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair» Milli Proqramda deyilir ki, 1992-ci ildə Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə Rio-de-Janeyro şəhərində keçirilmiş beynəlxalq konfransda qeyd edildiyi kimi, dünyanın gələcək inkişafı ilk növbədə ekoloji problemlərin necə həll olunmasından asılı olacaqdır. Bu konfransda dünyada mövcud olan ətraf mühit problemlərinin həlli yolları çox ciddi şəkildə nəzərdən keçirilmiş və mühüm qərarlar, o cümlədən artıq bütün beynəlxalq ekoloji təşkilatların proqram sənədinə çevrilmiş

«Dayanıqlı inkişaf» konsepsiyası qəbul edilmişdir. Bu konsepsiyada iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi, burada üstünlüyün ətraf mühitin qorunmasına verilməsi, ekoloji problemlərin ilk növbədə həll olunması, gələcək nəsillərin imkanları məhdudlaşdırılmadan çağdaş nəsillərin rifahının yaxşılaşdırılması ön xəttə çəkilmişdir. Buna nail olmaq üçün ilk növbədə iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi və ətraf mühitin qorunması təmin olunmalıdır.

Müasir dövrdə ayrılıqda bir dövlət üçün ekoloji təhlükəsizlik sistemi yaradılması, demək olar ki, qeyri-mümkündür. Yalnız birgə səylərlə, müvafiq hüquqi rejim yaratmaqla,

bugünkü və gələcək nəsillərin sağlam yaşayışını və inkişafını təmin etmək olar. Buradan belə bir məntiqi nəticə alınır ki, ətraf mühitin qorunub saxlanmasında və ekoloji ehtiyatların adekvat mühafizəsində beynəlxalq ekologiya hüququ həlledici rol oynaya bilər və oynamalıdır.

Beynəlxalq ekologiya hüququnun predmetinə aşağıdakı məsələlər daxildir: 1) ətraf mühitə müxtəlif mənbələrdən dəyən zərərin qarşısının alınması, azaldılması və aradan qaldırılması; 2) təbii ehtiyatların ekoloji baxımdan əsaslandırılmış rasional istifadəsi rejiminin təmin edilməsi; 3) ətraf mühitin mühafizəsi ilə bağlı dövlətlərin elmi- texniki əməkdaşlığı.

Beynəlxalq ekologiya hüququ öz müstəqil predmetinə malikdir. Belə predmet qismində beynəlxalq ekoloji ehtiyatlardan səmərəli istifadə, onların mühafizəsi və insanların sağlam ətraf mühitdə yaşamaq hüququnun mühafizəsi üzrə beynəlxalq ekoloji münasibətlər çıxış edir. Bu münasibətləri öz məzmununa görə beynəlxalq əməkdaşlıq sahəsində yaranan digər münasibətlərdən, habelə ölkədaxili ekoloji münasibətlərdən fərqləndirmək lazımdır.

Beynəlxalq ekologiya hüququnun prinsipləri ilk dəfə olaraq BMT-nin insanı əhatə edən mühitin problemləri üzrə 1972-ci il Stokholm konfransının Bəyannaməsində ifadə olunmuşdur. Həmin prinsiplər aşağıdakılardır:

— birinci (əsas) prinsip müəyyən edir ki, dövlət öz ehtiyatlarından ətraf mühitin problemlərinə yanaşmaya dair milli siyasətinə uyğun istifadə etmək hüququna malikdir. Dövlətlər öz yurisdik- siyası və nəzarəti altında olan hüdudlarda həyata keçirilən fəaliyyətin başqa dövlətlərin və ya milli yurisdiksiya hüdudlarından kənarda olan regionların ətraf mühitinə zərər vurmamasına görə məsuliyyət daşıyırlar;

— ikinci prinsip ondan ibarətdir ki, hava, su, torpaq, flora, fauna və təbii ekosistemlərin reprezentativ nümunələri də daxil olmaqla Yer kürəsinin təbii ehtiyatları indiki və gələcək nəsillərin mənafeləri naminə insan fəaliyyətinin müfəssəl planlaşdırılması və bu fəaliyyətin zəruri formada idarə edilməsi yolu ilə qorunub saxlanmalıdır;

— üçüncü prinsipə müvafiq olaraq bərpa olunmayan ehtiyatlar elə işlənməlidir ki, onlar gələcəkdə tükənməkdən mühafizə olunsun və beynəlxalq aləmdə onların istismarından bütün bəşəriyyət faydalana bilsin.

Beynəlxalq ekologiya hüququnun prinsiplərinin formalaşması BMT Baş Məclisi tərəfindən qəbul edilmiş və 28 oktyabr 1988-ci il tarixli qətnamə ilə elan edilmiş Ümumdünya Təbiət Xartiyasında davam etdirilmişdir. Həmin Xartiyada aşağıdakı prinsiplər müəyyən edilmişdir:

1) bioloji ehtiyatlar yalnız onların təbii bərpa olunma imkanları daxilində istifadə edilməlidir;

2) torpağın istehsal qabiliyyəti onun uzunmüddətli məhsuldarlığının və üzvi maddələrin parçalanma prosesinin qorunub saxlanması üzrə, erroziyanın və öz-özünə dağılmanın istənilən başqa formalarının qarşısının alınması üzrə tədbirlər hesabına saxlanılmalı və yaxşılaşdırılmalıdır;

3) su da daxil olmaqla dəfələrlə istifadə edilə bilən ehtiyatlar təkrar istifadə edilməli

və ya onların dövriyyəsi təmin edilməlidir;

4) bir dəfə istifadə edilə bilən bərpa olunmayan ehtiyatlar onların həcmi, istehlak üçün emal olunmasının səmərəli imkanları və onların istismarı ilə əlaqədar ekoloji sistemlərin normal fəaliyyətinin mümkünlüyü nəzərə alınmaqla istismar edilməlidir;

5) radioaktiv və zəhərli tullantıların ətraf mühitə atılmasına yol verməmək məqsədilə xüsusi tədbirlər həyata keçirilməlidir;

6) təbii mühitə aradan qaldırıla bilməyən zərər yetirə biləcək fəaliyyətdən çəkinmək zəruridir;

7) insanın fəaliyyəti nəticəsində tənəzzülə uğramış regionlar, onların təbii potensialı və orada yaşayan əhalinin rifah halının normal olması tələbi nəzərə alınmaqla bərpa edilməlidir.

**Beynəlxalq ekologiya hüququnun mənbələri. Beynəlxalq ekoloji-hüquqi məsuliyyət.**

Dünyanın müxtəlif dövlətləri beynəlxalq ekoloji-hüquq münasibətlərinin əsas subyektləri qismində çıxış edir. Bu hüquq münasibətlərinin yaranması üçün əsas rolunu beynəlxalq müqavilələr oynayır. Ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq üçün yaradılmış qurumların təşki- lati əsaslarını tənzimləyən aktlar istisna olmaqla, həmin müqavilələr beynəlxalq ekologiya hüququnun mənbələrini təşkil edir. Beynəlxalq ekoloji standartların ən yaxşı və ən səmərəli ifadə forması beynəlxalq müqavilələrdir. Hal-hazırda ətraf mühitin mühafizəsinin müxtəlif aspektlərinə dair 500-ə qədər beynəlxalq saziş mövcuddur. Onların içərisində ikitərəfli, regional və universal sazişlər, ətraf mühitin qorunmasının ümumi məsələlərinə və ya ayrı-ayrı ekoloji sistemlərin — dəniz mühitinin, atmosferin, yerət- rafı kosmik fəzanın mühafizəsinə həsr olunmuş müqavilələr vardır. Lakin bu sahədə bu günə qədər vahid məcəlləşdirilmiş akt işlənib hazırlanmamışdır.

Beynəlxalq ekologiya hüququnun mənbələri sırasına aiddir: beynəlxalq müqavilələr, sazişlər və konvensiyalar; beynəlxalq konfransların, müşavirələrin qərarları; tövsiyə xarakteri daşıyan xartiya və bəyanatlar.

Beynəlxalq çoxtərəfli ekoloji müqavilələrin əsas məqsədlərindən biri ekoloji təhlükəsizliyin təmin edilməsidir.

Ətraf mühitin mühafizəsi və ətraf mühitə vurulan zərərin ödənilməsi ilə bağlı bir sıra mühüm normalar beynəlxalq adət hüququna daxildir.

Ətraf mühitin mühafizəsi həm ayrı-ayrı dövlətlərin və regionların, həm də bütövlükdə dünya ictimaiyyətinin əsas vəzifəsidir. Bu problemin həllinin qlobal xarakter alması bütün dünya dövlətlərinin səylərini təbiətin zərərli təsirlərdən mühafizəsi məqsədi ətrafında birləşdirməyi tələb edir. Bu isə mövcud beynəlxalq ekoloji əməkdaşlığı dərinləşdirməyi, onu yeni konsepsiyalar əsasında qurmağı tələb edir. Belə əməkdaşlığın başlıca prinsipləri və metodları, habelə əməkdaşlığın istiqamətləri, üsulları və vasitələri dünya dövlətlərinin birgə işləyib hazırladığı beynəlxalq ekologiya hüququna dair aktlarda təsbit edilməlidir. Deməli, beynəlxalq ekologiya hüququ daimi inkişaf edən, müasir tələblərə cavab verə bilən işlək normativ materiallar sistemindən ibarət olmalıdır.

Ətraf mühitin beynəlxalq-hüquqi mühafizəsi üçün xarakterik olan prinsiplər

sırasında onun qorunub saxlanmasına görə beynəlxalq məsuliyyət əsas yerlərdən birini tutur, özlüyündə beynəlxalq hüquqi məsuliyyət anlayışı səciyyəvi mahiyyətə malikdir və daxili hüquq üzrə hüquqi məsuliyyət anlayışından fərqlənir. Başlıca fərq beynəlxalq öhdəlikləri pozmuş subyekt üçün belə pozuntunun hüquqi nəticələrindən ibarətdir. Beynəlxalq ekoloji-hüquqi məsuliyyətin əsas əlaməti beynəlxalq hüququn subyekti olan və hüquq pozuntusuna yol vermiş dövlət üzərinə başqa subyektlərə, bəzən isə hətta hüquqi və fiziki şəxslərə yetirdiyi zərərin əvəzini ödəmək vəzifəsinin qoyulmasıdır. Beynəlxalq hüququn subyektlərinin beynəlxalq-hüquqi məsuliyyət məsələsi BMT-nin Nizamnaməsində, Dəniz hüququ üzrə BMT Konvensiyasında və başqa aktlarda təsbit edilmişdir.

Beynəlxalq ekoloji-hüquqi məsuliyyətin subyektləri qismində dövlətlərlə yanaşı, beynəlxalq təşkilatlar da çıxış edə bilər.

Beynəlxalq hüquq pozuntuları ordinar hüquq pozuntularına və beynəlxalq cinayətlərə bölünür. Hüquq pozuntusunun əsas elementlərindən biri hüquqazidd davranışla yetirilmiş zərər arasında səbəbli əlaqənin olmasıdır. Hüquq pozuntusuna yol vermiş dövlətin təqsiri də mühüm əhəmiyyət daşıyır. Lakin beynəlxalq hüquqda təqsirsiz (obyektiv) məsuliyyət də mövcuddur.

Dövlətlərin beynəlxalq-hüquqi məsuliyyətinin iki növü məlumdur: siyasi və maddi. Siyasi məsuliyyətin ən geniş yayılmış forması sanksiyalardır (ağır beynəlxalq cinayət törədildiyi halda hüquq pozuntusuna yol vermiş dövlət barəsində tətbiq olunan məcburetmə tədbirləri). Maddi məsuliyyət dövlətin öz beynəlxalq öhdəliyini pozması və bunun maddi zərərə səbəb olması hallarında tətbiq edilir. Maddi məsuliyyət aşağıdakı formalarda olur:

— reparasiya - zərərin əvəzinin pulla ödənilməsi;

— restitusiya - qanunsuz götürülmüş əmlakın naturada qaytarılması;

— substitusiya - qanunsuz olaraq məhv edilmiş və ya zədələnmiş əşyanın başqası ilə əvəz edilməsi.

Yer kürəsi bəşəriyyətin vahid yaşayış məkanı olduğuna görə dövlətlərin ekoloji sahədə daha sıx əməkdaşlığı, ekoloji böhranın, ekoloji fəlakətlərin, ətraf təbii mühitin aşınmasının qarşısını almaq üçün daha ciddi səylər göstərməsi zəruridir. Eyni zamanda ətraf təbii mühitə zərər yetirən beynəlxalq hüququn subyektlərinin hüquqi məsuliyyətinin daha işlək və təsirli mexanizminin qurulması günümüzün vacib tələblərindəndir.

## 7. İstifadə olunan ədəbiyyat:


1. Əsədov A.Ə., Axundzadə L.T., Quliyeva Z.N. “Ekologiya hüququ” dərslik BAKI-2010
2. Qənbərov D., Hüseynov Ə., “Ekologiya hüququ” dərs vəsaiti - 2019